

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## YAP Mərkəzi Aparatında "Mənim Səsim" Seçki Monitorinq Koalisiyasının nümayəndələri ilə görüş keçirilib



4

№ 020 (6945)

2 fevral 2024-cü il.
Qiymәti 60 qәpik

# İnam və etimad: gələcəyə hesablanmış gənclər siyasəti



3

*Dövlət başçısının Sərəncamı ilə gənclərə Prezident mükafatları veriləcək*

# Fransada "DEMOKRATİK DİKTATURA"




4

## Qadın kimdir?



15

## Gənc ailələrlə sosial iş NECƏ APARILMALI?



15

## Avropada fermer üsyanı



5

## Ermənistanın konstitusiyası və gerbi dəyişdirilir, amma...



11

## Gəncliyi bizlərdən qoparan illər...



12

# “Ermənistan Azərbaycana qarşı iddialara son qoyduğu halda sülhə nail oluna bilər”





## Prezident İlham Əliyev Parlamentlərarası İttifaqın Baş katibini qəbul edib

***Prezident İlham Əliyev fevralın 1-də Parlamentlərarası İttifaqın Baş katibi Martin Çunqonqu qəbul edib. Parlamentlərarası İttifaqın Baş katibi Martin Çunqonq Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin təmin olunması münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırdı.***

Prezident İlham Əliyev təbriklərə görə təşəkkürünü bildirdi, bunun Azərbaycan xalqı və dövləti üçün tarixi məqam olduğunu qeyd etdi, bu yeni şəraitin regionda sülhün və sabitliyin gücləndirilməsi üçün imkanlar yaratdığını vurğuladı.

Dövlətimizin başçısı dedi ki, Minsk qrupu 28 il ərzində münaqişənin həlli prosesi ilə məşğul olsa da heç bir nəticə əldə edilmədi, Azərbaycan torpaqları işğaldan azad olunmadı, məcburi köçkünlərin geri qayıtması təmin edilmədi. Azərbaycan tərəfi isə torpaqları işğal altında olan zaman haqlı şəkildə Minsk qrupunun üzv dövlətlərini Ermənistana təzyiq göstərmək, ona müvafiq sanksiyalar tətbiq etmək barədə təkliflər irəli sürdüyü halda, o vaxt Minsk qrupu tərəfindən bu istiqamətdə heç bir addım atılmadı.

Prezident İlham Əliyev diqqətə çatdırdı ki, 2020-ci ildə 44 günlük Vətən müharibəsi başa çatandan sonra Azərbaycan regionda sülh gündəliyinin təşəbbüskarı olaraq Ermənistanla sülh müqaviləsinin imzalanması təklifi ilə çıxış edib. Amma Ermənistan tərəfindən buna adekvat reaksiya verilmədi. Ona görə də Azərbaycan sülh müqaviləsinin əsaslarını təşkil edən beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq 5 prinsip irəli sürüb ki, bunun əsasında da sülh müqaviləsi üzrə danışıqlar prosesinin təşəbbüskarı Azərbaycan olub.

Dövlətimizin başçısı 2020-ci ildə 44 günlük Vətən müharibəsi başa çatandan sonra üçtərəfli Bəyanat çərçivəsində Ermənistanın üzərinə götürdüyü bir sıra öhdəliklərini yerinə yetirmədiyini, son 3 il ərzində Azərbaycanın Qarabağ bölgəsində separatizmi maliyyə, hərbi və digər vasitələrlə dəstəkləməkdə davam etdiyini bildirdi.

Azərbaycan Prezidenti ötən il sentyabrın 2-də Ermənistan rəhbərliyinin qondarma “Dağlıq Qarabağ respublikası”nın “müstəqilliyi” münasibətilə göndərdiyi təbrikin, həmçinin sentyabrın 9-da keçirilmiş dırnaqarası “prezident seçkiləri”nin sülh prosesinə ciddi zərbə vurduğunu, Azərbaycanın özünün ərazi bütövlüyünü və suverenliyini təmin etmək üçün antiterror tədbirləri keçirməli olduğunu vurğuladı.

Dövlətimizin başçısı bildirdi ki, Azərbaycan ilə Ermənistan arasında artıq de-fakto sülh mövcuddur və iki ölkənin sərhədində bir neçə aydır sülh şəraiti hökm sürür. Amma bu prosesin məntiqi sonluğa çatdırılması üçün sülh müqaviləsi imzalanmalı və Ermənistanın Azərbaycana qarşı ərazi iddialarına son qoyulmalıdır.

Prezident İlham Əliyev bu xüsusda qeyd etdi ki, Ermənistanın müstəqillik haqqında Bəyannaməsində Azərbaycanın Qarabağ bölgəsinin Ermənistanla birləşdirilməsinə və Azərbaycanın ərazi bütövlüyünün pozulmasına birbaşa çağırışlar var və bu sənədə istinadlar da Ermənistanın Konstitusiyasında öz əksini tapıb. Həmçinin Ermənistanın digər normativ-hüquqi sənədlərində Azərbaycana qarşı ərazi iddiaları, Ermənistanın qoşulduğu bir çox konvensiyalarda və digər sənədlərdə Azərbaycanın Qarabağ üzərində suverenliyini tanımayan çoxsaylı qeyd-şərtlər mövcuddur. Bununla yanaşı, dövlətimizin başçısı vurğuladı ki, Ermənistanın beynəlxalq məhkəmələrdə Azərbaycana qarşı irəli sürdüyü iddiaların əsasını da Ermənistan tərəfindən Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün tanınmaması, Qarabağın Azərbaycandan ayrılması kimi məsələlər təşkil edir. Azərbaycan Prezidenti qeyd etdi ki, bu iddialara son qoyulduğu, Ermənistan Konstitusiyasında və digər normativ-hüquqi sənədlərdə dəyişikliklər edildiyi halda sülhə nail oluna bilər. Ermənistanda bunun tez bir vaxtda həyata keçirilməsinin vacibliyini bildirən dövlətimizin başçısı vurğuladı ki, hazırda Ermənistanda bu mövzuda ölkədaxili müzakirələrin başlanması müsbət addım kimi qiymətləndirilir və bu, sülh prosesinin tezliklə yekunlaşdırılması üçün yaxşı imkan yarada bilər.

Qonaq Beynəlxalq Parlamentlər İttifaqının Ermənistanın və Azərbaycanın parlament nümayəndələri arasında dialoq üçün platforma ola biləcəyi təklifi ilə çıxış etdi. Dövlətimizin başçısı bu təşəbbüsü yüksək qiymətləndirərək, iki ölkənin parlamentləri arasında məhz bu platformada dialoqun aparılmasının Azərbaycan tərəfindən dəstəkləndiyini diqqətə çatdırdı.

Fransanın regionda dağıdıcı siyasət həyata keçirərək od üstünə benzin tökmək prinsipindən çıxış etdiyini, Ermənistanın militarizasiya siyasəti apardığını, geosiyasi intriqaların təşəbbüskarı olduğunu deyən Prezident İlham Əliyev rəsmi Parisin regionda vəziyyətin gərginləşməsinin səbəbkarı olduğunu, müxtəlif beynəlxalq təşkilatlarda və parlament müstəvilərində anti-Azərbaycan siyasət yürütdüyünü də diqqətə çatdırdı. Dövlətimizin başçısı Fransanın Cənubi Qafqaz regionunda aparıcı mövqeyə nail olmaq və nüfuzunu gücləndirmək məqsədilə siyasət yürütdüyünü, lakin onların bu istiqamətdəki cəhdlərinin əbəs olduğunu vurğuladı.

Prezident İlham Əliyev Avropa Şurası Parlament Assambleyasında anti-Azərbaycan xarakteri daşıyan və Azərbaycan nümayəndə heyətinin etimadnaməsinin ratifikasiya edilməməsi ilə bağlı azlıq olan bir qrupun təşəbbüsünün dialoqa xidmət etmədiyini vurğulayaraq bildirdi ki, bu, ümumiyyətlə, parlament platformasının ənənələri ilə ziddiyyət təşkil edir. Azərbaycan nümayəndə heyətinin hüquqlarının bərpa edilməli olduğunu deyən dövlətimizin başçısı diqqətə çatdırdı ki, Azərbaycan nümayəndə heyətinin hüquqları bərpa olunmayacağı təqdirdə, Azərbaycan tərəfindən də Avropa Şurası və Avropa İnsan Haqları Məhkəməsində iştirak məsələsinə yenidən baxılacaq.

Martin Çunqonq Parlamentlərarası İttifaqın parlamentarilər arasında dialoqa, inklüzivliyə çağırdığını, eksklüzivliyin tərəfdarı olmadığını, bu kimi yanaşmaların düzgün qəbul edilmədiyini, beynəlxalq parlamentarizm ənənələri ilə uyğun gəlmədiyini diqqətə çatdırdı.

Qonaq COP29-la bağlı dövlətimizin başçısını təbrik edərək, COP29 keçiriləcəyi zaman Parlamentlərarası İttifaq çərçivəsində parlament nümayəndə heyətlərini bir araya gətirən, ətraf mühit və iqlim dəyişikliyi istiqamətlərində beynəlxalq səyləri dəstəkləyən bir tədbirin təşkil olunma təşəbbüsü ilə çıxış etdi. Bu təşəbbüsü dəstəkləyən dövlətimizin başçısı qonağı Azərbaycanın ev sahibliyi edəcəyi COP29-a dəvət etdi. Dəvət məmnunluqla qəbul olundu.

Parlamentlərarası İttifaqın Baş katibi Azərbaycanın Qoşulmama Hərəkatına uğurlu sədrliyi münasibətilə də təbriklərini çatdırdı, ölkəmizin Hərəkatın parlament ölçüsünün yaradılması təşəbbüsünü təqdir etdi.

Prezident İlham Əliyev Azərbaycanın Qoşulmama Hərəkatına 4 illik sədrliyi müddətində bu təsisatın beynəlxalq nüfuzunun artırılması, yeni əməkdaşlıq sahələrinin yaradılması, bu xüsusda parlament, gənclər ölçülərinin və qadın platformasının təsis olunması istiqamətində təşəbbüslərlə çıxış etdiyini vurğuladı. Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.

## Növbədənkənar prezident seçkiləri ilə əlaqədar ərəb ölkələrində məntəqə seçki komissiyaları yaradılıb

***Fevralın 7-də Azərbaycanda keçiriləcək növbədənkənar prezident seçkiləri ilə əlaqədar ərəb ölkələrində məntəqə seçki komissiyaları yaradılıb. Ölkəmizin Dubaydakı baş konsulluğundan AZƏRTAC-a bildirilib ki, növbədənkənar prezident seçkiləri ilə əlaqədar Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində 16 saylı Yasamal 2-ci seçki dairəsi üzrə 56 saylı məntəqə seçki komissiyası yaradılıb. Baş konsulluq bu şəhərdə yaşayan Azərbaycan vətəndaşlarına xatırladıb ki, onlar seçkilər günü öz sənədlərini (pasport, şəxsiyyət vəsiqəsi) məntəqə seçki komissiyasına təqdim etməlidirlər.***

Daha üç məntəqə seçki komissiyası İordaniyanın paytaxtı Əmmanda, BƏƏ-nin paytaxtı Əbu-Dabidə və Səudiyyə Ərəbistanının paytaxtı Ər-Riyadda Azərbaycanın bu ölkələrdəki səfirliklərinin inzibati binalarında yaradılıb. Diplomatik nümayəndəliklərin müraciətlərində qeyd olunub ki, növbədənkənar prezident seçkiləri ilə əlaqədar Azərbaycan Respublikasının hüdudlarından kənarda yaşayan və ya uzunmüddətli xarici ezamiyyətdə olan vətəndaşların seçkilərdə iştirakını təmin etmək məqsədilə məntəqə seçki komissiyaları formalaşdırılıb. Bu ölkələrdə səsvermə yerli vaxtla saat 08:00-dan 19:00-a qədər keçiriləcək.



# İnam və etimad: gələcəyə hesablanmış gənclər siyasəti

## *Dövlət başçısının Sərəncamı ilə gənclərə Prezident mükafatları veriləcək*

***Bu gün 2 Fevral Gənclər gününü gəncliyimiz başqa bir ab-havada qeyd edir. Böyük ruh, həvəs, gələcəyə inamı olan gənclik kimi. Zəfər sevincinin ən yüksək bir həddini yaşayan qürurlu övlad kimi. Bundan fəxarətli nə ola bilər? Müstəqil Azərbaycan dövlətinin vətənpərvər gəncləri bir yumruq altında birləşərək dövlətimiz, xalqımız, gələcək inkişaf üçün həmrəydirlər.***



Cəmiyyətin aparıcı qüvvəsinə çevrilən gənclər daim axtarışda olan, yeniliyi sevən bir gənclikdir. Məlumdur ki, ölkəmizdə Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyünün qorunması, ölkədə hüquqi-demokratik dövlət quruculuğu prosesində gənclərin rolunun müstəsnalığı nəzərə alınaraq, vahid gənclər siyasəti hazırlanıb, həyata keçirilib. Ümummilli Lider Heydər Əliyev gənclərin dövlətin və cəmiyyətin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında iştirakının təmin edilməsini vacib məsələlərdən biri kimi elan edib.

Müstəqilliyimizin yenidən bərpasının ilk illəri digər sahələr kimi, gənclərə diqqətdə də problemlərin mövcudluğu ilə xarakterizə olunsa da, 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra gənclərin həyatında yeni mərhələ başladı. Gənclərə diqqət və qayğı dövlət siyasətinin əsasına çevrildi. Ulu Öndərin 1997-ci ildə imzaladığı Fərmana əsasən Azərbaycan Gənclərinin I Forumunun keçirildiyi tarix - 2 fevral Azərbaycan Gəncləri Günü elan edildi. Həmin vaxtdan etibarən Gənclər Günü MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk dəfə olaraq Azərbaycanda təntənəli şəkildə qeyd edilməyə başlayıb. 1996-cı il fevralın 2-də keçirilən Azərbaycan Gənclərinin I Forumunda Ulu Öndər Heydər Əliyev çıxışında demişdir ki, hər bir Azərbaycan gənci hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir.

### "ÖLKƏNİN GƏNCLƏRİ ONUN HƏM BU GÜNÜDÜR, HƏM DƏ SABAHIDIR, ÜMİDİDİR"

Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan dövlət-gənclər siyasəti, sovet məkanında yaşadığımız illərə təsadüf edir. Belə ki, Ümummilli Lider Heydər Əliyev ötən əsrin 70-80-ci illərində Azərbaycan gənclərinin cəmiyyətin inkişafında rolunu artırmaq, ölkənin gələcək inkişafında iştirakını və məsuliyyətini yüksəltmək istiqamətində məqsədyönlü gənclər siyasətini həyata keçirib. Bu siyasətin davamı olaraq, Ulu Öndər Heydər Əliyev Azərbaycanda müstəqillik dövründə gənclər siyasətinə önəm verərək, onların təşkilatlanmasına xüsusi diqqət ayırdı. Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyünün qorunması, ölkədə hüquqi-demokratik dövlət quruculuğu prosesində gənclərin rolunun müstəsnalığı nəzərə alınaraq, vahid gənclər siyasəti hazırlanıb, həyata keçirildi. "Yalnız milli xarakterli, düşüncəli gənclər müstəqil dövləti inkişaf etdirə və qoruya bilər" – deyə Ulu Öndər Heydər Əliyev bildirmişdir. Gənclər, İdman və Turizm Nazirliyinin yaradılması, müstəqil Azərbaycan gənclərinin ilk Ümumrespublika Forumunun keçirilməsi, dövlət proqramlarının qəbulu, "Dövlət-gənclər siyasəti haqqında" Fərman və geniş Fəaliyyət Proqramının təsdiq edilməsi Ulu Öndər Heydər Əliyevin gənclərə böyük qayğısı idi. 1997-ci ildə fevralın 2-nin Azərbaycan Gəncləri Günü elan edilməsi Ulu Öndər Heydər Əliyevin gənclərlə böyük qayğısının sübutu idi. Bütün bunlar gənclərin respublikanın ictimai-siyasi həyatında daha fəal iştirakına şərait yaratmaqla yanaşı, dövlət orqanlarının diqqətinin gəncliyin problemlərinin həllinə yönəldilməsi baxımından da olduqca əhəmiyyətli idi.

Ulu Öndər Heydər Əliyevin "Hər bir xalqın, hər bir millətin, hər bir ölkənin gəncləri onun həm bu günüdür, həm də sabahıdır, ümididir" fikri, dövlət gənclər siyasətinin fəlsəfi və ideoloji əsası olmaqla gəncləri Azərbaycanın uğurlu gələcəyi naminə səfərbər edir. Ulu Öndər gənclərə həmişə böyük diqqət və qayğı ilə yanaşmış, onların problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərə xüsusi önəm vermiş, bu siyasəti müasir müstəqil Azərbaycan dövlətinin fəaliyyətinin ən mühüm istiqamətlərindən biri kimi dəyərləndirmişdir. Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər siyasəti Azərbaycan gəncliyinin inkişafında dərin izlər buraxıb.

### UĞURLU GƏLƏCƏK ÜÇÜN YARADILAN ŞƏRAİT

Bu gün dövlət gənclər siyasəti ölkə başçısı Cənab İlham Əliyevin diqqət və qayğısı ilə özünün keyfiyyətcə yeni inkişaf mərhələsini yaşayır. Bunun nəticəsidir ki, bugünki Azərbaycan gəncliyi cəmiyyət həyatının bütün istiqamətlərində fəal iştirak edir. Prezident İlham Əliyev gənclərin dövlət idarəçiliyi sistemində iştirakının gerçəkləşdirilməsi, onların potensialından düzgün istifadə məqsədilə 2005-ci il avqustun 30-da "Azərbaycan Gəncliyi Dövlət Proqramı"nı (2005-2009-cu illər) təsdiq etdi ki, bu da gənclərə dövlət qayğısının artırılmasını təmin edirdi. "2007-2015-ci illərdə Azərbaycan Gənclərinin təhsili üzrə Dövlət Proqramı" gənclərin təhsil səviyyəsinin yüksəldilməsinin parlaq ifadəsidir. Bütün bunların nəticəsidir ki, ötən dövr ərzində gənclər siyasəti və gənclərlə iş sahəsində bir sıra mühüm nəticələr əldə edilib. Hazırda ölkəmizdə 200-dən artıq gənclər təşkilatı fəaliyyət göstərir. Azərbaycan gəncləri Avropa miqyasında, beynəlxalq qurumlarda təmsil olunurlar. Onlar beynəlxalq tribunalardan xalqımızın haqq səsini dünyaya yayır, beynəlxalq ictimaiyyətin əsl həqiqəti bilməsi üçün var gücü ilə çalışırlar. 2017-ci il sentyabrın 15-də Prezident İlham Əliyevin Sərəncamı ilə növbəti "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramı təsdiq edildi. Bu proqram dünyada gedən prosesləri nəzərə alaraq, növbəti illərdə də Azərbaycan gənclərinin vətənpərvərlik, onlar tərəfindən innovativ düşüncə və rəqabətə davamlı biliklərin əldə olunması, yüksək texnologiyalar və informasiya mühitində sərbəst davranışının təşviqini zəruri etmiş oldu. Dövlət Proqramının əsas məqsədi isə respublikamızda gənclər siyasətinin daha da səmərəli həyata keçirilməsini təmin etməkdən ibarət idi. Bu gün Azərbaycanda gənclərin uğurlu gələcəyi üçün hər bir şərait vardır.

Prezident İlham Əliyevin gənclərə dəstək yönündə verdiyi mühüm və əlamətdar qərarlardan biri də 2013-cü il 2 iyul tarixində ölkədə ilk dəfə "Gənclər üçün Prezident Mükafatı"nın təsis edilməsi oldu. Prezident Mükafatı elm, mədəniyyət, o cümlədən ədəbiyyat və incəsənət, təhsil, gənclər siyasəti və gənclərlə iş, ictimai və sosialyönümlü fəaliyyət, innovasiya və sahibkarlıq fəaliyyəti sahələrində xüsusi fərqlənən 10 nəfər gəncə ildə bir dəfə 10000 (on min) manat məbləğində verilir.

Dövlət başçısı 1 yanvar 2024-cü il tarixində "2024-cü il Gənclər üçün Prezident mükafatlarının verilməsi haqqında" Sərəncam imzalayıb. Sərəncama əsasən, elm, təhsil, mədəniyyət, gənclər siyasəti və gənclərlə iş, ictimai və sosialyönümlü fəaliyyət, innovasiya və sahibkarlıq sahələrində xüsusi fərqlənən şəxslərə 2024-cü il Gənclər üçün Prezident mükafatları veriləcəkdir.

### "HƏR BİR VƏTƏNPƏRVƏR AZƏRBAYCANLI HAQLI OLARAQ FƏXR EDİR Kİ, O, MÜSTƏQİL AZƏRBAYCAN RESPUBLİKASININ VƏTƏNDAŞIDIR"

Ölkəmizdə həyata keçirilən inkişaf strategiyası bütün sahələrdə olduğu kimi gənclərdən də yan ötməyib. Ümumiyyətlə, dövlət tərəfindən həyata keçirilən gənclər siyasəti ölkə əhalisinin 60 faizdən çoxunu təşkil edən gənclərin hərtərəfli inkişafına, məşğulluq və təhsil səviyyəsinin yüksəldilməsinə, onların dünyagörüşünün, fiziki və mənəvi sağlamlığının artırılmasına hesablanıb. Azərbaycan hakimiyyəti gənclərin bilik və bacarıqlarının hərtərəfli formalaşmasını, ölkədə səriştəli kadr və mütəxəssis ordusunun yetişməsini, bir sözlə, neft kapitalının insan kapitalına çevrilməsini ən əsas prioritetlərdən biri olaraq elan edib. Uğurla aparılan gənclər siyasətinin müsbət nəticələri göz önündədir. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində bildirdiyi kimi, "Bu gün Azərbaycan gəncləri müstəqillik dövründə yaşayırlar. Bu, böyük xoşbəxtlikdir. Bu gün hər bir vətənpərvər azərbaycanlı haqlı olaraq fəxr edir ki, o, müstəqil Azərbaycan Respublikasının vətəndaşıdır. Ölkəmizin hərtərəfli inkişafında gənclərimizin çox böyük rolu vardır. Gənclər müxtəlif sahələrdə çox uğurla fəaliyyət göstərirlər, ölkəmizin ümumi inkişafına böyük töhfə verirlər". Müstəqil dövlətimizin gəncləri ölkəmizin bütün sahələrində dəsti-xətti olan gənclikdir. Onların öz bilik və bacarıqlarının, təbii potensialının effektli reallaşdırılmasını, cəmiyyətdə layiqli yer tutmasını təmin edən şəraitin yaradılması məqsədilə dövlət tərəfindən müəyyən edilmiş prioritetlər və həyata keçirilən tədbirlər gənclərin hərtərəfli inkişafına səbəb olub. Gənclik millətin gələcəyinin, inkişafının təməl daşıdır. Millətin mövcudluğu üçün sağlam gənclik vacib şərtdir. "Siz Azərbaycanın bu günü və gələcəyisiniz. Sizin üzərinizə böyük vəzifə düşür, bu vəzifələr gələcəkdə daha da böyük olacaqdır, siz müstəqil Azərbaycanın XXI əsrdə yaradanlarısınız, quranlarısınız, inkişaf etdirənlərisiniz. Biz müstəqil Azərbaycanın taleyini gələcəkdə sizə etibar edəcəyik, sizə tapşıracağıq", - deyə Azərbaycan Prezidenti bildirmişdir.

### "ASAN XİDMƏT"DƏ İŞLƏYƏNLƏRİN MÜTLƏQ ƏKSƏRİYYƏTİ GƏNCLƏRDİR

Azərbaycanda geniş vüsət almış könüllülər hərəkatının aparıcı gücü məhz gənclərdir. Gənclərimizin potensialının, fəallığının, məsələlərə yeni baxışlarının cəmiyyət üçün çox lazımlı olduğunu diqqətə alan Prezident İlham Əliyev 2019-cu il dekabrın 30-da Azərbaycan Respublikasında 2020-ci ilin "Könüllülər ili" elan edilməsi haqqında Sərəncam imzaladı. Ölkəmizdə təxminən 20 min gənc könüllü olaraq çalışmış və indi onlar ayrı-ayrı təşkilatlarda müxtəlif vəzifələrdə işləyirlər. Könüllülər hərəkatının cəmiyyətin inkişafında xüsusi əhəmiyyəti var. Bu, cəmiyyətdə xeyirxahlıq, yeni davranış qaydalarını təbliğ edir. Könüllülər hərəkatı "ASAN xidmət"dən başladı və bu gün "ASAN xidmət"də işləyənlərin mütləq əksəriyyəti gənclərdir.

2018-ci ilin noyabr ayında Gənclərin İnkişaf və Karyera Mərkəzi Azərbaycan Respublikası Gənclər Fondunun nəzdində fəaliyyətə başlayıb. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2019-cu il tarixli 1 oktyabr tarixli Sərəncamına əsasən Azərbaycan Respublikasının şəhər və rayonlarında yaşayan gənc vətəndaşların dövlət gənclər siyasətinin tələblərinə, Ümummilli Lider Heydər Əliyevin dövlətçilik fəlsəfəsi və azərbaycançılıq məfkurəsinə uyğun şəkildə hərtərəfli inkişafının təmin olunması məqsədilə ölkənin şəhər və rayonlarındakı Heydər Əliyev Mərkəzlərində GİKM-in nümayəndəliklərinin yaradılması və fəaliyyətinin təmin edilməsi qərara alınmışdı.

### VƏTƏNPƏRVƏR VƏ MÜBARİZ GƏNCLİK

Gəncliyə göstərilən dövlət qayğısı sabaha və uğurlara hesablanan bir siyasətdir. Bu sağlam və intellektual nəslin formalaşmasına xidmət edir. Ölkəmizdə aparılan gənclər siyasəti hər bir gəncin üzərinə böyük məsuliyyət qoyur.

Qürurlu haldır ki, xalqımızın qəhrəmanlıq tarixini yazanlar da onlardır. Qazanılan uğurlar, bir daha onu sübut edir ki, hər bir gənc ölkə qarşısında qoyulan böyük məqsədi və məsuliyyəti dərk edir. 44 günlük Vətən müharibəsində gənclərimiz vətənpərvərlik nümayiş etdirdilər. Bu gün yüksək milli ruhlu gənclərimiz Ali Baş Komandanın əmri ilə torpaqlarımızı işğaldan azad etdi. 30 illik həsrətə son qoyuldu. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində vurğuladığı kimi, "Mən çox şadam ki, son illər ərzində Azərbaycanda vətənpərvər, güclü, milli ruhda tərbiyə almış gənc nəsil yetişib". Cənab Prezident bildirib ki, Onun Azərbaycana rəhbərliyi dövründə yetişən insanlar bu torpaqları azad etdilər. Bu gün hər bir gəncin üzərində ciddi mənəvi məsuliyyət var. Bu, Qarabağla, onun dirçəldilməsi ilə bağlı mənəvi məsuliyyətdir. Cənab Prezident İlham Əliyev tərəfindən uğurla aparılan gənclər siyasəti, Azərbaycan əsgərinin qələbəsi əminliklə deməyə əsas verir ki, gənclər mütəşəkkil, vətənpərvər, geniş dünyagörüşlü və mübariz gənclərdir.

**Nəzakət ƏLƏDDİNQIZI**

# YAP Sədrinin müavini Tahir Budaqov "Sivil Toplum" Monitorinq Koalisiyasının həmsədrlərini qəbul edib



***Fevralın 1-də Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov 2024-cü il fevralın 7-nə təyin edilmiş Azərbaycan Respublikası Prezidenti seçkilərində müşahidəçilik fəaliyyətini həyata keçirən "Sivil Toplum" Monitorinq Koalisiyasının həmsədrlərini qəbul edib.***

Görüş zamanı həmsədrlər – "Müstəqil Hüquq Mərkəzi" İctimai Birliyinin sədri Aydın Kərimov, "Demokratik Seçki Mərkəzi" İctimai Birliyinin sədri Qorxmaz İbrahimli və "Cəmiyyətin İnkişafı Mərkəzi" İctimai Birliyinin sədri Əhməd Abbasbəyli koalisiyanın seçki kampaniyası müddətində həyata keçirilmiş və səsvermə günü də daxil olmaqla qarşıdakı dövr üçün planlaşdırılan fəaliyyəti barədə məlumat veriblər.

YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov fevralın 7-də keçiriləcək prezident seçkilərinin önəmini diqqətə çatdırıb. Seçki kampaniyasının yüksək səviyyədə həyata keçirildiyini vurğulayan Tahir Budaqov vətəndaş cəmiyyətinin bu prosesdə fəal iştirakının Azərbaycanda demokratik mühitin bariz nümunəsi olduğunu söyləyib. Sonra seçki kampaniyası ilə bağlı koalisiya nümayəndələrinin sualları cavablandırılıb.

# YAP Mərkəzi Aparatında "Mənim Səsim" Seçki Monitorinq Koalisiyasının nümayəndələri ilə görüş keçirilib



***Fevralın 1-də Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov 2024-cü il fevralın 7-nə təyin edilmiş Azərbaycan Respublikası Prezidenti seçkiləri ilə əlaqədar yaradılmış "Mənim Səsim" Seçki Monitorinq Koalisiyasının nümayəndələrini qəbul edib.***

Koalisiyanın həmtəsisçiləri – "D.Əliyeva adına Qadın Hüquqlarının Müdafiəsi Cəmiyyəti" İctimai Birliyinin sədri Novella Cəfəroğlu, İnsan Hüquqları və Qanunçuluğun Müdafiəsi İctimai Birliyinin sədri Səidə Qocamanlı, Beynəlxalq İnsan Hüquqları Cəmiyyətinin Azərbaycan Milli Bölməsinin sədri Səadət Bənənyarlı, həmçinin ekspertlər – sosioloq Əhməd Qəşəmoğlu və politoloq Adəm İsmayıl Bakuvi fevralın 7-də keçiriləcək prezident seçkilərinə ölkəmizdə və beynəlxalq müstəvidə böyük maraq olduğunu diqqətə çatdırıblar. Vurğulanıb ki, koalisiya prezident seçkiləri kampaniyasının gedişini paytaxtla yanaşı, bölgələrdə də yaxından izləyir. Sonra koalisiya tərəfindən indiyədək görülmüş işlər və yekun hesabat tərtib olunana qədər nəzərdə tutulan tədbirlər barədə məlumat verilib.

YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov 2024-cü il fevralın 7-də keçiriləcək prezident seçkilərinin Azərbaycan xalqı və dövləti üçün çox mühüm əhəmiyyətə malik olduğunu diqqətə çatdırıb. Seçki kampaniyasının uğurla davam etdiyini söyləyən Tahir Budaqov vurğulayıb ki, ölkəmizdə seçkilərin azad, şəffaf və demokratik qaydada keçirilməsi üçün bütün şərait mövcuddur.

Daha sonra koalisiya nümayəndələrininin sualları cavablandırılıb.

# Fransada "DEMOKRATİK DİKTATURA"




***Fransanın özünü demokratik ölkələrdən biri kimi göstərməyə çalışması və eləcə də demokratik dəyərlərin qoruyucularından biri kimi sırıması ilə bu ölkənin törətdiyi qanlı hadisələr və həmin ölkənin öz daxilində olan diktatura heç də bir araya sığmır. Milyondan artıq insanın qətlinə imza atan bir Avropa ölkəsində etirazçıların səsinin boğulması artıq heç bir ölçüyə gəlmir və Fransa dövlətinin demokratiya iddiaları ilə paradoks təşkil edir.***

Demokratik olduğu iddia edilən ölkədə diktaturanın olmasına başqa ad vermək mümkün də deyil, çünki paradoksallıq özünü göstərir.

Makron diktaturası təkcə Fransada deyil, ümumiyyətlə, Avropa Birliyi məkanında belə demokratiya və insan haqları anlayışını oyuncağa çevirməkdədir. Görünən odur ki, rəsmi Parisə daha demokratiya və insan haqları qətiyyən lazım deyil. Amma unutmaq da lazım deyil ki, Fransa hazırda Avropa Birliyinin iki avanqard ölkəsindən biridir və rəsmi Paris diktaturaya meyillənirsə, onsuz da formal xarakter daşıyan demokratik dəyərlərdən imtina edirsə, Avropa Birliyinə də bu, təsirsiz ötüşə bilməz. Daha dəqiq desək, rəsmi Paris öz daxilində diktaturaya meydan açırsa, deməli, bunun təsiri ümumilikdə Avropa Birliyi məkanına da olacaq və belə görünür ki, Fransa bununla həmin məkanda belə demokratik dəyərləri "dəfn etmək" niyyətindədir. Əgər təsir variantı olmasaydı, Fransa Avropa Birliyi sıralarında qala bilməzdi və bu qurumun sanksiyalarına tuş gələrdi.

Fransada inqilabi situasiyanın yarandığı bir məqamda rəsmi Paris etirazçıları dinləmək niyyətindən belə çox-çox uzaq görünür. Makron hakimiyyəti kütləvi repressiyalarla narazı təbəqələrə divan tutmaq variantını məqbul hesab edir. Demokratik ölkə imici ilə diktaturaya yol açan Fransa prezidenti Emmanuel Makrona da "gözün üstündə qaşın var" deyən yoxdur. Makron diktaturasının yeni bəşəri cinayətlərinə reaksiya verməyərək, Avropa Birliyi müşahidəçi mövqe sərgiləyir. Bir Avropa ölkəsində baş verənlərə, diktatranın hökm sürməsinə bu yekəlikdə beynəlxalq qurum göz yumur. Amma həmin qurum Avropa hüdudlarından kənarda olan ölkələri ən xırda məsələlərə görə qınamaqdan qətiyyən çəkinmir. Hər halda, Fransada baş verənləri görməməzliyə vuran, reaksiya belə verməyən, buna görə səsini belə çıxarmayan Avropa Birliyindən də bundan sonra ədalət gözləmək sadəlövhlükdən başqa bir şey hesab oluna bilməz. Özünü ermənidən betər erməni kimi aparan, erməni xalqının təəssübkeşi sifətində əldən-ayaqdan gedən Fransa prezidenti Emmanuel Makron öz ölkəsinin vətəndaşlarının hüquq və təhlükəsizliyi barədə qətiyyən düşünmür. O, əli silahlı erməni terrorçulara verdiyi dəstək qədər fransızlara dəstək vermir, əksinə, Fransada ölkə vətəndaşlarının hüquqları kobud şəkildə pozulur. Fransa polisi ölkə əhalisinə qarşı ifrat dərəcədə zorakılıq tətbiq edir. Təsadüfi deyil ki, hətta Fransa polisinin zorakılığına görə həyatını itirənlər də olur. Bunun adını Makron demokratiya qoymaq istəyirsə, bərk yanılır. Çünki bu, diktaturadır. Yox, əgər Fransa prezidenti öz ölkəsində demokratiya ilə diktaturanı bir arada, bir müstəvidə təqdim etmək istəyirsə, heç olmasa buna "demokratik diktatura" adı versin.

Prezident Makron bunun adını nə qoyurqoysun, sadalananlar demokratiya deyil, diktatura nümunələridir. Çünki rəsmi Parisin kütləvi etiraz aksiyalarına qarşı repressiyaya başlaması Fransada demokratiyanın mövcud olmadığını, əksinə, diktaturanın olduğunu sübut edir. Makron diktaturası kütləvi həbslərə əl atmaq əvəzinə aksiyaçıların tələblərini dinləyib, onların problemlərini həll etməyə çalışsaydı buna diktatura yanaşması kimi baxılmazdı. Amma görürük ki, rəsmi Paris aksiyaçıların tələblərinə əhəmiyyət vermək niyyətində deyil. Başqa ölkələrə təzyiq vasitəsi kimi Makronun istifadə etdiyi demokratiya, insan haqları, söz azadlığı kimi dəyərlər Fransanın özündə mövcud deyil. Bu isə o deməkdir ki, deməli, mövcud olan diktaturadır. Bir tərəfdən demokratik dəyərlərdən dəm vurulur, digər tərəfdən də Fransa polisi dinc şəkildə etiraz edən insanlara qarşı güc tətbiq edərək, onları həbs edərək, haqlarını əllərindən alır. Bununla da Fransa hökuməti demokratik dəyərləri ümumiyyətlə, ayaqlar altına atır. Anqlo-saksonlara qarşı edilənlərə, ardınca da Korsikanın yeni müstəqillik hərəkatı liderlərinin həbsinə, onlara qarşı vəhşiliklərə nə ad qoyaq? Yaxud, Makronun dəm vurduğu demokratiya adını necə qoyaq? Axı buna qətiyyən demokratiya demək olmaz və əgər Emmanuel Makron çox israr etmiş olarsa, direşmiş olarsa, Fransadakı mövcud vəziyyətə gülünc də səslənsə belə, uzaq başı "demokratik diktatura" demək olar ki, bundan həmin ölkə hakimiyyəti də, həmin ölkənin prezidenti də lazımi nəticə çıxarmış olsun.

***İnam Hacıyev***





# Avropada fermer üsyanı

## *Birlik ölkələrinin rəhbərlərini fermerlərin yox, özlərinin qazancı maraqlandırır*

***Avropalı fermerlərin etirazları güclənməkdə davam edir. Yanacağın və gübrələrin bahalaşmasından, xaricdən gələn rəqabətdən və Avropa İttifaqının yeni ekoloji standartlarından narazılıq dalğası artıq Almaniya, Polşa, Hollandiya, Rumıniya, Yunanıstan, Belçika və Fransanı bürüyüb. İndi onlar İspaniyada etiraz estafeti üzərinə götürməyə hazırlaşırlar. Üstəlik, fevralın 1-də avropalı fermerlər öz narazılıqlarını şəxsən vahid Avropanın "ürəyində" – həmin gün Aİ liderlərinin sammitinin keçiriləcəyi Brüsselin mərkəzində ifadə etmək niyyətindədirlər.***



Fransanın baş nazir Attalın vəd etdiyi dəstək tədbirləri fermerlər üçün yetərli görünmür. Həmkarlar ittifaqları 140 konkret təklif hazırlayıb, Attal isə bürokratik gecikmələri yüngülləşdirməyi, pərakəndə satış şəbəkələrində ucuz qiymətlərlə mübarizə aparmağı və kənd təsərrüfatı texnikası üçün dizelə endirim etməyi vəd edərək cəmi bir neçə qeyri-müəyyən tədbiri səsləndirib. Fermerlər onların bütün şikayətlərinin nəzərə alınmasını təmin etmək niyyətindədirlər. Onlar dövlətin Avropa İttifaqını razı salmaq üçün getdikcə daha çox ekoloji və inzibati tələblər irəli sürməsindən narazıdırlar. Qlobal problem fransız şəhər sakinlərini yedizdirənlərin gəlir səviyyəsidir. Statistikaya görə, fermerlərin 18%-i yoxsulluq həddinin altında yaşayır, 20%-i isə dolanışıqlarını təmin etmək üçün natamam işləməyə məcburdur. Məhsullar Avropa Azad Ticarət Sazişi çərçivəsində istehsal tələblərinin aşağı olduğu, qiymətlərin də aşağı olduğu ölkələrdən gətirilir. Fransada bürokratiya o yerə çatır ki, etirazçılardan birinin etiraf etdiyi kimi, o, "vaxtının 60%-ni kağızlara, yalnız 40%-ni traktor sürməyə sərf edir".

2011-ci ildən Fransa sosial şəbəkələrində "Fermerlərin qəzəbini izah edən 30 saniyə" adlı video yayılır. Orada indiki İqtisadiyyat naziri, sonra isə Kənd Təsərrüfatı Naziri olan Bruno Le Maire jurnalistlərin "Bir hektarda neçə kvadratmetr var?" kimi suallarına cavab verə bilmir. Yəni fermerlər onların kim tərəfindən idarə edildiyinə diqqət çəkmək istəyiblər. Nəticə göründüyü kimi çox acınacaqlıdır, nazirin kənd təsərrüfatından, fermerin həyat şəraitindən, iqtisadi durumundan xəbəri yoxdur.

### Traktorlar, Parisə

Paytaxt Parisin tam mühasirəyə alınmasının qarşısını almaq üçün 15 min polis məmuru silahlandırılıb, lakin Daxili İşlər Nazirliyinin rəhbəri Gerald Darmanin qanun və asayiş qüvvələrinin yalnız ekstremal hallarda müdaxilə edəcəyini bildirib. O, TF1 telekanalına deyib ki, fermerlər əziyyət çəkir və tələb etmək hüququna malikdirlər. Baş nazir Attal isə tətilçiləri ofisində görüşə dəvət edib. Yelisey Sarayı Emmanuel Makronun Avropa Komissiyasının rəhbəri Ursula fon der Leyenlə görüşəcəyini açıqlayıb. Gündəmdə Avropa bürokratiyasından bezmiş fransız fermerlərin acınacaqlı vəziyyəti var.

Son bir neçə ildə ispan fermerləri üçün də işlər yaxşı getmir. Ölkənin cənubunda tez-tez baş verən quraqlıqlar səbəbindən zeytun kimi bir sıra məhsulların istehsalı nəzərəçarpacaq dərəcədə azalaraq fermerlərin gəlirlərinə ciddi zərbə vurub. Lakin bütün kənd təsərrüfatı sənayesi gübrə və yanacaq kimi ehtiyatların qiymətlərinin artması, üçüncü ölkələrdən daha ucuz kənd təsərrüfatı məhsullarının idxalı və Avropanın ətraf mühitin mühafizəsi qaydaları ilə daha da gərginləşib. Onlara uyğun olaraq, bütün Aİ ölkələri pestisidlərin və gübrələrin istifadəsini azaltmalı və hər il əkin sahələrinin 4%-ni biçilmiş (yəni şumlanmış, lakin əkilməmiş) qoymalıdır. Bütün bunlar birlikdə götürsək, fermerləri təkcə İspaniyada deyil, bütün Avropada məhv olmaq həddinə çatdırmaq təhlükəsi yaradır.

İtaliyanın hər yerindən - cənub Siciliyadan şimaldakı Trento şəhərinə qədər - traktor karvanlarının yollarının bağlanması son həftələrdə müntəzəm hal alıb. Bu bazar ertəsi hökumətin kənd təsərrüfatı istehsalçıları üçün dizel vergisi subsidiyalarını ləğv etmək planlarına etiraz olaraq fermerlər Romanın şimalındakı magistral yolu qismən bağlayıblar və Milan yaxınlığındakı Melennano şəhərində oxşar aksiya keçiriblər.

Bu arada, çərşənbə axşamı günortadan sonra, Avropanın ən böyük limanlarından biri olan Belçikanın Zeebrugge şəhəri tamamilə bağlanıb və bütün ətraf yollarda ciddi sıxlıq yaşanıb. Ucuz idxala və Aİ-nin ətraf mühit siyasətinə etiraz edən belçikalı fermerlər blokadanı çərşənbə günündən cümə axşamına kimi gecə yarısına qədər davam etdirəcəklərini vəd ediblər. Paralel olaraq 400 belçikalı fermer çərşənbə axşamı Antverpen yaxınlığında bir həftəlik etiraz aksiyasına başlayıb.

Cümə axşamı isə Brüsselin Lüksemburq meydanında fermerlərin kütləvi etirazlarına start verilib. Yer və vaxt təsadüfi seçilməyib: fevralın 1-də yaxınlıqda Avropa İttifaqı ölkələrinin liderlərinin fövqəladə sammiti keçiriləcək. Kəndlilərin, kiçik və orta fermerlərin, kənd təsərrüfatı işçilərinin birlik və təşkilatlarını bütün Avropada birləşdirən "Avropa Koordinasiyası Via Campesina" təşkilatının rəhbərləri Avropa Komissiyasının rəhbəri Ursula fon der Leyen və Avropa Şurasının rəhbəri Şarl Mişel ilə şəxsən görüşmək üçün yola çıxıblar.

Fermerlərin fikrincə, dövlət subsidiyalarının ədalətsiz paylanması, rəqəmsallaşma, GMO və digər bazarlara mənasız dəstək, eləcə də kənd təsərrüfatının daha dayanıqlı modellərinə keçid üçün ümumi baxışın olmaması, sərbəst ticarət müqavilələrinə tətbiq edilən məhdudiyyətlər fermerlərin acınacaqlı vəziyyətə düşməsinə səbəb olub. Aİ yerli fermerlərlə deyil, ilk növbədə Latın Amerikası bloku MERCOSUR (Argentina, Braziliya, Paraqvay və Uruqvaydan ibarət Cənubi Amerikanın ən böyük ticarət-iqtisadi birliyi) ilə sazişə üstünlük verir.

Avropalı fermerlər Fransa prezidenti Emmanuel Makronun simasında gözlənilməz müttəfiq tapdıqlarını düşündükləri vaxt məlum olub ki, Yelisey sarayının sahibi Fransa kənd təsərrüfatının Braziliya və Argentina mal əti ilə rəqabətə tab gətirməyəcəyindən ehtiyat edir. Ona görə də Aİ ilə dörd Cənubi Amerika ölkəsinin bloku arasında azad ticarət ideyasına dəstəkləməyə məcbur olub. Amma Fransanın özündə başlanan güclü fermer iğtişaşları Makronu MERKOSURla müqaviləyə qarşı çıxmağa məcbur edib.

Üstəlik, Parisdə hətta eyham vurdular ki, Avropa Komissiyası (AK) artıq guya Fransa lideri ilə razılaşıb və Cənubi Amerika bloku ilə təxminən iyirmi ildir ki, hazırlaşdığı sövdələşməni dayandırmaq qərarına gəlib. Lakin bu, dərhal Avropa rəsmilərinin bir sıra təkziblərinə səbəb olub. Fermerlərə yenə yalan vədlər verilir. Makron bu razılaşmaya qarşı mübarizə aparırmış kimi görüntü yaratsa da, fransız fermerlər inflyasiya, bürokratiya, Aİ-nin yeni ekoloji tələbləri və daha yaxınlarda gəlirlərin azalmasından narazı olaraq (Ukraynadan kənd təsərrüfatı məhsullarının ixracı üçün güzəştlər) cənab Makronun özünə qarşı mübarizəni davam etdirmək qərarına gəliblər.

RAKURS

Ardı Səh. 6

# Avropada fermer üsyanı

*Birlik ölkələrinin rəhbərlərini fermerlərin yox, özlərinin qazancı maraqlandırır*



Əvvəli-Səh-5

Çərşənbə axşamı ölkənin kənd təsərrüfatını Fransanın "qüruru və gücü" adlandıran Baş nazir Qabriel Attal, fransızlar üçün Avropa qaydalarından bir sıra istisnalara nail olacağına söz verib və eyni zamanda şərabçılara təcili yardımın və martın ortalarına kimi digər kənd təsərrüfatı istehsalçılarına subsidiyalar ayrıldığını elan edib.

Bununla belə, əhalinin ekoloqlardan daha çox rəğbət bəslədiyi fransız fermerlərinin əksəriyyəti etiraz aksiyalarını davam etmək qərarına gəliblər və traktor blokadasını ən azı həftə sonuna qədər bütün ölkə boyu davam etdirəcəklərini bildiriblər.

"Bu gün küçələrdə 10 min nümayişçi var, 100-dən çox blokada nöqtəsi var" deyən daxili işlər naziri Gerald Darmanin France 2 TV-yə bildirib. Polis AB-nin Market, Rangis, Paris yaxınlığında yerləş ən böyük qida təminatçısı olan 79 fermeri saxlayıb. Bildirilir ki, fermerlər pavilyonlardan birinə girməyə cəhd edərkən tutulublar.

Avropa ölkələrindən yalnız dekabrın sonunda fermer iğtişaşlarının başladığı Almaniyada bir qədər sakitlik müşahidə olunub. Lakin bunun bir mühüm səbəbi var - Almaniya parlamenti hazırda büdcə layihəsini müzakirə edir və yerli fermerlər sənəddə onların maraqlarının tam nəzərə alınacağını gözləyirlər. Əks təqdirdə, almanlar yenidən şəhər küçələrində traktorlardan ibarət sütunları görmək riski ilə üzləşəcəklər.

### Fermerlərə dəstək

Avropa İttifaqına rəhbərlik dəyişikliyinə ehtiyac var, çünki o, Ukrayna dempinqindən əziyyət çəkən avropalı fermerləri deyil, Ukraynanın maraqlarını qoruyur. Bunu Macarıstanın baş naziri Viktor Orban fevralın 1-də Aİ sammitinin keçiriləcəyi Brüsselə gələrkən jurnalistlərlə söhbətində deyib. Macarıstan hökumətinin başçısı şəhərin küçələrində etiraz aksiyalarını davam etdirən belçikalı fermerlərlə də danışıb. "Avropa Komissiyası ukraynalılara qarşı avropalı fermerlərin maraqlarını təmsil etməlidir, əksinə deyil", - Orban deyib. O, fermerlərlə söhbətinin və mətbuatla qısa görüşün videosunu sosial şəbəkədəki səhifəsində yerləşdirib.

Baş nazir hesab edir ki, Avropa İttifaqında liderlik tamamilə dəyişməlidir, çünki "indiki liderlər heç vaxt fermerlərin xeyrinə qərarlar qəbul etməyəcəklər". Orban 2024-cü ilin iyununa planlaşdırılan Avropa Parlamenti seçkilərinə toxunaraq, "Biz xalqın maraqlarını həqiqətən təmsil edən yeni liderlər tapmalıyıq" deyib.

### Brüssel nədən qorxur?

Kiyev Avropa Birliyinin toplantısından maliyyə yardımı ilə bağlı müsbət qərarlar gözlədiyi bir vaxtda, Avropada yerli fermerlərin müdafiəçiləri bu hadisələri izləməkdədirlər. Digər səngərdə isə Avropada çəkilən siyasi "klip"lərin baş qəhrəmanı Emmanuel adlı və Makron soyadlı Fransa prezidenti var. "Biz nəyin bahasına olursa-olsun Ukraynanı qorumaq və dəstəkləmək üçün hərəkətə keçməyə hazır olmalıyıq", Makron Amerikanın nüfuzlu "Politico" nəşrinə bu yaxınlarda deyib. Avropa ölkələrini, hətta Vaşinqtonu Ukraynanı dəstəkləməkdən imtina etsələr belə, bu ölkəyə yardım etmək üçün "cəsarətli və yenilikçi qərarlar" qəbul etməyə hazır olduğunu bildirib. Fermerlər Makronun sözünün arxasında onların maraqlarını tapdalamaq kimi iyrənc yanaşmanın olduğunu da düşünürlər.

Makron Avropa Komissiyasının rəhbəri Ursula fon der Leyen ilə danışıqlarının mövzularını açıqlayarkən qeyd edib ki, Ukraynadan idxalla bağlı problemin həllinə ümid bəsləyirik, çünki bu idxalın miqyası və keyfiyyəti baxımından biz Avropa bazarında sabitliyi pozan amilləri görürük. Bu, toyuq və taxıl idxalına aiddir. Avropa səviyyəsində Fransanın müdafiə etdiyi qida suverenliyi prinsiplərinə uyğun siyasət lazımdır. Makron hökumətin fransız fermerlərini dəstəklədiyini bildirib və əlavə edib ki, onların üzləşdiyi çətinliklərə cavab tapacağıq. Məsələ aydındır, səhərdən axşama kimi heç kim peyin iyini duymaq istəmir. Avropa Komissiyası həqiqətən də qərarlar hazırlayır, bunların heç də hamısı Kiyevi və ukraynalıları sevindirməyəcək. Bir tərəfdən, Avropa Komissiyası sabah Ukraynadan kənd təsərrüfatı məhsullarının rüsumsuz idxalını uzatmaq niyyətindədir. Amma digər tərəfdən Avropa Komissiyası Ukraynanın Aİ-yə ixracına idxal rüsumlarının və kvotaların dayandırılmasını daha bir il müddətinə 2025-ci ilin ortalarına qədər uzatmağı, eyni zamanda Aİ-nin həssas kənd təsərrüfatı məhsullarının mühafizəsini gücləndirməyi təklif edib. Keçmiş yunan siyasətçisi və AK-nin hazırkı rəhbərinin müavini Marqaritis Şinas deyib ki, bu, Aİ-nin lazım olduğu müddətcə Ukraynanı dəstəkləmək üzrə öhdəliklərinə uyğun olaraq edilir. Və bu "mühafizənin gücləndirilməsi" Ukrayna üçün əsas sürprizdir.

Avropa Komissiyası ən həssas məhsulların - quş əti məhsulları, yumurta və şəkərin Ukraynadan idxalı üçün "fövqəladə mexanizmi" təmin edib. Ukrayna idxalının həcmi 2022-2023-cü illərin səviyyəsini keçərsə, o, dərhal tətbiq ediləcək. "Yeni mexanizm Aİ bazarında və ya bir və ya bir neçə üzv dövlətin bazarlarında əhəmiyyətli pozuntular baş verərsə, vəziyyəti düzəltmək üçün sürətli tədbirlər görmək imkanını təmin etməlidir", deyə Marqaritis Schinas bildirib.

Quş əti, yumurta və şəkər Avropa fermerləri üçün taxıldan sonra ikinci ən həssas əmtəə kateqoriyasıdır. Lakin onlar həm də ukraynalı fermerlər üçün eyni taxıldan sonra ikinci yerdədirlər. Beləliklə, Ukraynaya pul ayrılması ilə bağlı görüşün necə başa çatacağı hələlik məlum deyil, amma fakt budur ki, lazım gələrsə, Aİ vədindən geri addım ata bilər. Bu, bir Avropa yanaşmasıdır

**V.VƏLİYEV**









# “Gələcəyə hesablanmış siyasət Azərbaycana davamlı uğurlar qazandıracaq”





**2024**-cü il fevralın 7-də ölkəmizdə keçiriləcək prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş İlham Heydər oğlu Əliyevin seçkiqabağı təşviqat kampaniyası çərçivəsində yanvarın 31-də YAP Xətai rayon təşkilatının qərargahında seçicilərlə növbəti görüş keçirilib.

Görüşdə YAP Xətai rayon təşkilatının sədri Vüqar Rəhimzadə, partiyanın İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Mixail Zabelin, təşviqat qrupunun üzvləri Zaur Məmmədov, Mirfaiq Mirheydərli, Hicran Şərifov, Vətən müharibəsi şəhidi mayor Rüfət Əsgərovun atası Mürvət Əsgərov, Vətən Müharibəsi Qəhrəmanı Zaur Hüseynov və başqaları çıxış ediblər.

Çıxışlarda qeyd edilib ki, ərazi bütövlüyü və suverenliyini tam olaraq bərpa edən ölkəmiz bu gün siyasi, iqtisadi və hərbi baxımdan qüdrətli dövlətdir. Son 20 il ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən müdrik, gələcəyə hesablanmış siyasət ölkəmizə davamlı uğurlar qazandırır. Vurğulanıb ki, Prezident İlham Əliyevin ötən 20 ildə hər bir vədini reallığa çevirməsi, qətiyyətli və prinsipial mövqeyi Qərbi Azərbaycana qayıdışın da uzaqda olmadığını təsdiqləyir.

Natiqlər seçiciləri fevralın 7-də keçiriləcək prezident seçkilərində fəal olmağa və Müzəffər Ali Baş Komandan İlham Əliyevə səs verməyə dəvət ediblər.

Qeyd edək ki, Xətai rayonunda “qapı-qapı” məhəllə görüşlərinin qrafikinə uyğun olaraq seçicilərlə növbəti fərdi görüşlər Şıxlinski 59 və 57 ünvanları üzrə 4 mənzildə keçirilib.

# “Müzəffər Liderimizə minnətdarıq!"





**2024**-cü il fevralın 7-də ölkəmizdə keçiriləcək prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş İlham Heydər oğlu Əliyevin seçkiqabağı təşviqat kampaniyası çərçivəsində Sumqayıt şəhərində şəhid ailələri, qazilər və müharibə iştirakçıları ilə görüş keçirilib.

Əvvəlcə Dövlət Himni səsləndirilib, Ulu Öndər Heydər Əliyevin və Vətən uğrunda canlarından keçən qəhrəman oğulların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Daha sonra Prezident İlham Əliyevin 20 illik fəaliyyətinə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Görüşdə YAP Sumqayıt şəhər təşkilatının sədr müavini Cavid Məmiyev, Milli Məclisin deputatı Müşfiq Məmmədli, qazilər Zahir Həsənov və Ehtiram Məmmədov, şəhid Taleh Kərimovun həyat yoldaşı Nəzakət İsmayılova, təşviqat qrupunun üzvləri çıxış ediblər. Tədbirdə çıxış edənlər cənab İlham Əliyevin 20 illik prezidentlik fəaliyyəti nəticəsində Azərbaycanın qazandığı uğurlardan danışıblar. Qeyd edilib ki, bu dövrdə həm iqtisadi göstəricilər, həm də ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlər 44 günlük Vətən müharibəsində böyük Zəfərin qazanılmasına imkan verib. Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycan xalqı bütün dünyaya sübut etdi ki, Qarabağ Azərbaycandır!

Şəhid ailələri və qazilər onlara göstərilən diqqət və qayğıya görə ölkə Prezidenti, Müzəffər Ali Baş Komandana öz minnətdarlıqlarını bildiriblər. Əminliklə bildiriblər ki, 7 fevral prezident seçkilərində onların yekdil seçimi qalib ölkənin qalib Lideri İlham Əliyevdir! Tədbirin sonunda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# Gənclər Müzəffər Ali Baş Komandanın ətrafında sıx birləşiblər





***2024-cü il fevralın 7-də ölkəmizdə keçiriləcək prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş İlham Heydər oğlu Əliyevin seçkiqabağı təşviqat kampaniyası çərçivəsində Kəngərli rayonunda gənclərlə görüş keçirilib.***

Əvvəlcə Dövlət Himni səsləndirilib, Ulu Öndər Heydər Əliyevin və Vətən uğrunda canlarından keçən qəhrəman oğullarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Görüşdə YAP Kəngərli rayon təşkilatının sədri Sevda Quluyeva, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Ehtimad Məmmədov, təşviqat qrupunun üzvləri Salman Quluzadə, Mirabdulla Seyidov və qazi Nicat Süleymanov çıxış ediblər.

Çıxışlarda Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi gənclər siyasətinin Prezident İlham Əliyevin rəhbərliyi ilə müasir dövrün tələblərinə və reallıqlarına uyğun olaraq yeni bir mərhələyə qədəm qoyduğu qeyd olunub. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə gənclərimizin Vətən müharibəsində böyük Zəfər qazandığı xüsusi vurğulanıb. Natiqlər ölkəmizdə uğurlu gənclər siyasətinin həyata keçirildiyini, eyni zamanda, Azərbaycanın güclü idman ölkəsi kimi tanındığını deyiblər. Gənclər çıxışlarında fevralın 7-də seçki məntəqələrinə gedərək Azərbaycan xalqının ən layiqli namizədi cənab İlham Əliyevə səs verəcəklərini bildiriblər. Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# "Xalqın etimadını doğruldan Lideri dəstəkləyirik"





**2024**-cü il fevralın 7-də ölkəmizdə keçiriləcək prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş İlham Heydər oğlu Əliyevin seçkiqabağı təşviqat kampaniyası çərçivəsində Göygöl rayonunda seçicilərlə görüş keçirilib. Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda həlak olmuş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

Görüşdə YAP Göygöl rayon təşkilatının sədri Vüqar İsayev, partiyanın İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu, təşviqat qrupunun üzvləri Əmirxan Mövlayev və Yeganə İsgəndərova çıxış ediblər. Çıxışlarda Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi 20 il ərzində görülən misilsiz işlərdən, 44 günlük Vətən müharibəsində əldə edilən tarixi Zəfərin əhəmiyyətindən bəhs edilib, Müzəffər Ali Baş Komandanın Azərbaycanı inkişafdan tərəqqiyə, tərəqqidən Zəfərə çatdırdığı diqqətə çatdırılıb. Natiqlər qeyd ediblər ki, qazanılan uğurlar cənab İlham Əliyevin prezident vəzifəsində xalqın ona etimadını layiqincə doğrultduğunun göstəricisidir.

Seçicilər də çıxışlarında fevralın 7-də hər zaman xalqın yanında olan, ölkəsinin uğurları üçün daim çalışan qalib Lider İlham Əliyevə səs verəcəklərini bildiriblər. Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.




# "Seçimimiz qalib Lider İlham Əliyevdir"





2024-cü il fevralın 7-də ölkəmizdə keçiriləcək prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş İlham Heydər oğlu Əliyevin seçkiqabağı təşviqat kampaniyası çərçivəsində Ağcabədi rayonu ərazisində məskunlaşmış laçınlı seçicilərlə görüş keçirilib. Görüşdə YAP Laçın rayon təşkilatının sədri İlqar İlyasov, şəhid atası Mehman Nəcəfov, təşviqat qrupunun üzvləri Şikar Qasımov, Sevinc Əliyeva, Mikayıl Zeynalov və Abuzər Abuzərov çıxış ediblər.

Çıxışlarda bildirilib ki, son 20 ildə cənab İlham Əliyevin rəhbərliyi ilə xalqımız misilsiz nailiyyətlərə imza atıb. Həyata keçirilmiş ardıcıl və məqsədyönlü siyasi kurs ölkəmizin sürətli və dayanıqlı inkişafını, güclü iqtisadi potensialın formalaşmasını, müasir cəmiyyət quruculuğunu, vətəndaşların rifahı, təhlükəsizlik və müasir ordu quruculuğu kimi məsələlərin effektiv həllini təmin edib, ölkəmizin beynəlxalq nüfuzu yüksəlib, dünyada strateji əhəmiyyəti artıb.

2020-ci il sentyabrın 27-də Ermənistanın davamlı hərbi təxribatlarına cavab olaraq başlanmış Vətən müharibəsində əldə edilmiş tarixi Zəfər və 2023-cü il sentyabrın 19-20-də həyata keçirilmiş lokal xarakterli antiterror tədbirləri nəticəsində 30 il ərzində xalqımızın qarşısında duran ən mühüm problem - Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün tam bərpası məsələsi həll edilib.

Natiqlər seçiciləri 7 fevral prezident seçkilərində fəal iştirak etməyə və ölkəmizin parlaq gələcəyinin təminatçısı olan Yeni Azərbaycan Partiyasının namizədi cənab İlham Əliyevə səs verməyə çağırıblar. "Seçimimiz qalib Lider İlham Əliyevdir",- deyə seçicilər vurğulayıblar.

# "İlham Əliyev hər bir azərbaycanlının Prezidenti olduğunu sübuta yetirib"




2024-cü il fevralın 7-də ölkəmizdə keçiriləcək prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş İlham Heydər oğlu Əliyevin seçkiqabağı təşviqat kampaniyası çərçivəsində Sabunçu rayonunda seçicilərlə görüş keçirilib.

Əvvəlcə Dövlət Himni səsləndirilib, Ulu Öndər Heydər Əliyevin və Vətən uğrunda canlarından keçən qəhrəman oğulların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Görüşdə YAP Sabunçu rayon təşkilatının sədri Araz Xudadanov, Milli Məclisin deputatı Əliabbas Salahzadə, təşviqat qrupunun üzvləri Zülfüqar Cəfərov, Oruc Əhmədov, Sübhan Məmmədov və Samirə Mehtiyeva çıxış ediblər. Bildirilib ki, bu gün Azərbaycanın müasir tarixinin şanlı səhifələri yazılır. Cənab İlham Əliyevin gördüyü işlər, həyata keçirdiyi uğurlu siyasət onun bu seçkilərdə alternativsiz namizəd olduğunu bir daha təsdiq edir. Diqqətə çatdırılıb ki, cənab İlham Əliyev hər bir azərbaycanlının Prezidenti olduğunu təsdiqləyib. Qeyd olunub ki, Yeni Azərbaycan Partiyası tərəfindən prezident seçkilərində namizədliyi irəli sürülən cənab İlham Əliyevə xalqımız hər zaman olduğu kimi bu dəfə də böyük dəstək verəcək.



Çıxış edən seçicilər də fevralın 7-də seçki məntəqələrinə gedərək qalib Lider İlham Əliyevə səs verəcəklərini vurğulayıblar.

# "Qalib Liderimizin siyasətinə alternativ yoxdur"




***2024-cü il fevralın 7-də ölkəmizdə keçiriləcək prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş İlham Heydər oğlu Əliyevin seçkiqabağı təşviqat kampaniyası çərçivəsində Yasamal rayonunun İ.Qutqaşınlı, L.İmanov küçələri və digər ünvanlarda yaşayan seçicilərlə görüş keçirilib.***

Görüşdə YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev, partiyanın Gənclər Birliyinin sədri Bəxtiyar İslamov, Milli Məclisinin deputatı Elnur Allahverdiyev, təşviqat qrupunun üzvləri Rəna Mirzəzadə, Elxan Hüseynov, Şikar Qasımov, Leyla Hüseynova və Lalə Bayramova çıxış ediblər.



Çıxışlarda qeyd olunub ki, 20 il öncə Azərbaycan xalqı cənab İlham Əliyevi Prezident seçməklə sülhün, əmin-amanlığın, tərəqqinin, inkişafın, quruculuğun və sabitliyin tərəfində olduğunu nümayiş etdirib və ölkədə bu siyasətə alternativin olmadığını göstərib.

Eyni zamanda qeyd olunub ki, Prezident İlham Əliyevin liderlik qabiliyyəti, dövlətçilik təfəkkürü, yenilməz əzmi və iradəsi ölkəmizin müasir simasını müəyyənləşdirməklə yanaşı, Cənubi Qafqaz bölgəsinin geosiyasi mənzərəsini kökündən dəyişib.

Natiqlər seçiciləri fevralın 7-də keçiriləcək prezident seçkilərində fəal iştirak etməyə və qalib xalqın qalib Lideri olan Yeni Azərbaycan Partiyasının namizədi cənab İlham Əliyevə səs verməyə çağırıblar.

# "Etimadımız sonsuzdur!"



2024-cü il fevralın 7-də ölkəmizdə keçiriləcək prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş İlham Heydər oğlu Əliyevin seçkiqabağı təşviqat kampaniyası çərçivəsində Culfa rayonunda seçicilərlə görüş keçirilib.

Görüşdə YAP Culfa rayon təşkilatının sədri Qadir İbrahimov, YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Ülviyyə Həmzəyeva, Milli Məclisin deputatı Cəbi Quliyev, Naxçıvan MR Ali Məclisinin deputatı Fərəc Fərəcov, təşviqat qrupunun üzvləri Mübariz Allahverdiyev, Tərlan Nəcəfova, Ehtiram Süleymanov, Bəylər Qafarov, Aslan Quliyev, Yadulla Heydərov, Tural Qafarov çıxış ediblər.



Çıxışlarda bildirilib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu diplomatik siyasət və ordu quruculuğu torpaqlarımızın işğaldan azad olunması, ərazi bütövlüyümüzün təmin edilməsi və bütün ölkə ərazisi üzərində konstitusiya quruluşunun bərpası ilə nəticələnib. Bu misilsiz və cahanşümul dövlətçilik siyasətinin nəticəsidir ki, bu gün xalq qalib Liderinə etimad göstərir. Seçicilər artıq seçimlərini etdiklərini və fevralın 7-də seçki məntəqələrinə gedərək xalqımıza Zəfər sevinci yaşadan cənab İlham Əliyevə səs verəcəklərini bildiriblər.

# "Azərbaycanı parlaq gələcəyə aparan Liderə səs verəcəyik!"




2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən irəli sürülmüş cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində YAP Gənclər Birliyi bölgə gəncləri ilə görüşləri davam etdirir.

Xüsusi brendləşdirilmiş avtobus ilə təşkil edilən növbəti səyyar görüş Xaçmaz rayonunda keçirilib. Görüşlərdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.



Daha sonra YAP Gənclər Birliyinin üzvü Emil Aslanlı, YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Azər Badamov və YAP Xaçmaz rayon təşkilatının sədr müavini Emil Tağıyev çıxış edərək prezident seçkilərinin önəmindən, cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın son 20 ildə qazandığı nailiyyətlərdən, xüsusilə də gənclər siyasətinin uğurlu nəticələrindən bəhs edib, qarşıda duran hədəfləri diqqətə çatdırıblar.

Görüşdə, həmçinin bölgə gənclərinə seçki sistemi, seçicinin hüquq və vəzifələri barədə məlumat verilib, ilk dəfə səs verəcək gənclərin məlumatlılıq səviyyəsinin artırılması ilə əlaqədar infosessiyalar təşkil edilib. Səyyar görüşdə maarifləndirmə sessiyaları ilə yanaşı, intellektual yarışlar, fərdi və peşəkar inkişafa, eləcə də səsvermə hüququndan istifadəyə dair təlimlər və müxtəlif tematik müsabiqələr keçirilib.

Gənclər Azərbaycanın Zəfər tarixini yazan, ölkəmizin ərazi bütövlüyünü və suverenliyini təmin edən Müzəffər Ali Baş Komandan İlham Əliyevin siyasətini dəstəklədiklərini, Azərbaycanı parlaq gələcəyə - işıqlı sabaha aparan Liderə səs verəcəklərini və daim onun ətrafında sıx birləşəcəklərini ifadə ediblər. Tədbirə Yeni Azərbaycan Partiyasının himninin səsləndirilməsi ilə yekun vurulub.

# "İlham Əliyevin uğurlu siyasətini dəstəkləyirik"




***2024-cü il fevralın 7-də ölkəmizdə keçiriləcək prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş İlham Heydər oğlu Əliyevin seçkiqabağı təşviqat kampaniyası çərçivəsində YAP Balakən rayon təşkilatının qərargahında ilk dəfə səs verəcək gənclərlə görüş keçirilib.***



Əvvəlcə Dövlət Himni səsləndirilib, Ulu Öndər Heydər Əliyevin və Vətən uğrunda canlarından keçən qəhrəman oğulların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Görüşdə YAP Balakən rayon təşkilatının sədri Azad Balayev, təşviqat qrupunun üzvləri Xəlifə Mirəliyev, Fuad Mikayılov, Osman Əliyev və digərləri çıxış ediblər. Vurğulanıb ki, ölkə gəncliyinin savadlı şəkildə yetişməsi və vətəninə faydalı olması üçün bütün imkanlar səfərbər edilib. Natiqlər gəncləri həm ictimai-siyasi həyatda, həm də seçki kampaniyasında daha fəal olmağa, 7 fevralda parlaq gələcəyə səs verməyə çağırıblar.

Çıxış edən gənclər Prezident İlham Əliyevin uğurlu və uzaqgörən siyasətini böyük ruh yüksəkliyi ilə dəstəkləyəcəklərini bildiriblər. Tədbirdə YAP sıralarına qəbul olunmuş gənclərə partiya biletləri təqdim edilib. Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# "Əsrin möcüzəsi və ya üç dəniz əfsanəsi"



*Müsahibimiz Əməkdar mədəniyyət işçisi, yazıçı-dramaturq Marat Haqverdiyevdir*

Cəmiyyətdə mövqeyi, bədii-yaradıcı təfəkkürü ilə seçilən insanların ömür yoluna salınan naxışlar onların həyat fəlsəfəsi, görüşləri ilə bağlı çox həqiqətlərə aydınlıq gətirir. Ziyalı işığı ilə xeyirxah əməlləri ömür yolunun tərcümanına həkk olunanlar yüksək intellekti, istedadları ilə də cəmiyyətdə öz sözlərini deyərək milyonların sevgisini qazanırlar. Neçə onillikləri yaradıcılıq qələminə sarılaraq fədaiyə çevrilən, Azərbaycan ədəbiyyatı xəzinəsinin zənginləşməsinə töhfələr verən ziyalılardan biri də nəfəsi, dəsti-xətti ilə seçilən Əməkdar mədəniyyət işçisi, yazıçı-dramaturq Marat Haqverdiyevin özünəməxsus tərcümeyi-halından keçdiyi ömür yolunu vərəqləyərkən oxuyuruq: Böyük şəcərənin nümayəndəsi olan Marat Haqverdiyev mənən zəngin ailənin ocağında boya-başa çatıb. Belə ki, atası Azərbaycan və Türkmənistanın əməkdar artisti Xanlar Haqverdiyev və anası Cahan Əfruz (Dilanova) şairə-dramaturq olub. Lirik-dramatik tenor səs tembrinə malik olan Xanlar Haqverdiyev Məcnun, İbn Salam ("Leyli və Məcnun" - Ü.Hacıbəyli), Kərəm ("Əsli və Kərəm" - Ü.Hacıbəyli), Şah İsmayıl, Əlyar ("Şah İsmayıl", "Nərgiz" - M.Maqomayev), Qərib ("Aşıq Qərib" - Z.Hacıbəyli), Aşıq ("Şahsənəm" - R.Qlier) və s. partiyaları məharətlə ifa etmişdir.

Anası Cahan Əfruz (Dilanova) şairə-dramaturq kimi tanınmışdır. "Şeirlər", "Dağlar", "İki ana", "Sevgi sətirləri", "İki bayram" kitabları rus, ispan, türkmən, hind dillərinə tərcümə olunub. Cahan Əfruzun "Qanqın böyük dalğası", "Tahirin aqibəti" və başqa əsərləri 70-ci illərdə Moskvada səhnələşdirilib. Onun "İlham pərisi", "Gəldim ki, deyəm sevirəm" faciəsi sonralar Azərbaycan səhnəsində və başqa respublikaların səhnəsində dəfələrlə tamaşaya qoyulub. İki istedadlı sənətkarın əhatəsində boya-başa çatan Marat Haqverdiyev uşaqlıqdan rəssamlığa böyük maraq göstərsə də, orta məktəbi bitirərkən memar olmağa qərar verir. Arzusu onu 1956-cı ildə Azərbaycan Politexnik İnstitutuna gətirir və bu təhsil ocağının memarlıq fakültəsinə daxil olur. Amma incəsənətə olan marağını heç nə üstələyə bilməyir və institutun xalq çalğı alətləri ansamblı və estrada orkestrinin solisti kimi sovet respublikalarında qastrol səfərlərində olur. Ömrünün təxminən 40 ilini Mədəniyyət Nazirliyinin nəzdində Tarix və Mədəniyyət Abidələrinin Bərpası İdarəsində müxtəlif vəzifələrdə işləyib. Respublikanın tarix və mədəniyyət abidələrinin, o cümlədən Akademik Opera və Balet Teatrı, Rəşid Behbudov adına Mahnı Teatrı, muzeylər, məscidlər, mədrəsələr, qala və türbələrin bərpası ilə məşğul olub. Ötən əsrin 70-ci illərində ədəbiyyata tərcüməçi kimi gələn müəllif gənclik illərində anasının əsərlərini sətri tərcümə edib. Çox keçmir ki, yazıçı dram əsərlərinin, maraqlı ssenarilərin də müəllifi kimi tanınır. "Ailədə məhkəmə", "Məhəbbət, şeytan və lambada", "Məşuqələr", "Ah, qadınlar, qadınlar", "Qısqanc ürəklər", "Sənsiz yaşaya bilmərəm", "Məhəbbət əzabları", "Məhəbbət yaşa baxmır", "Amerikalı kürəkən" kimi sevilən pyesləri ilə sevgi qazanıb. Bütün bunlarla yanaşı, "Səninlə və sənsiz", "Səni gözləyirəm", "Jiquli əməliyyatı" kimi bədii televiziya filmlərinin ssenari müəllifidir. Əsərləri Azərbaycan teatr səhnəsindən qardaş Türkiyə teatrlarına yol açır. Belə ki, müəllifin "Qısqanc ürəklər" komediyasını qardaş Türkiyədə İstanbul şəhəri Sarıyer bələdiyyə teatrının yaradıcı heyəti səhnəyə qoyur. 2000-ci ildə "Qısqanc ürəklər" tamaşasının premyerası "Çırağan" sarayında keçirilir və böyük uğurla başa çatır. Tamaşa dövrü mətbuat və televiziya kanalları tərəfindən bəyənilərək, Azərbaycan-Türkiyə mədəni əlaqələrinə dostluğuna və qardaşlığına gözəl bir töhfə kimi qiymətləndirilir. "Ah, qadınlar, qadınlar" əsəri təqdim edilir və hər iki əsər Türkiyənin bir çox teatrlarında - İstanbulun Çemberlitaş teatrı, Sarıyer bələdiyyə teatrı, Fatih Universitetinin teatrında səhnələşdirilir.Maraqlı bir yaradıcılıq yoluna malik olan Marat Haqverdiyevin "Əsrin möcüzəsi və ya üç dəniz əfsanəsi" yaradıcılığının ən parlaq zirvəsidir və müsahibimizlə söhətimizi də bu mükəmməl əsərə nəzər salaraq başladıq.

**- Marat müəllim, yaradıcılıq dünyanıza nəzər saldıqda görürük ki, bu, zamanın diktəsi ilə yoğrulmuş zəngin irsdir. Ölkəmizin ictimai-siyasi həyatının nəbzini tutur, zaman və sənətkar anlayışları baxımından buna yozumunuzu verirsiniz. Belə bir baxış çərçivəsində olan Marat Haqverdiyevin "Əsrin möcüzəsi və ya üç dəniz əfsanəsi" kimi möhtəşəm bir əsərin yazılmasına qərar verməsinə səbəb nə idi ?**

- Həmişə vətən və ədəbiyyat qarşısında borcumu yerinə yetirməyə çalışmışam. Ümumiyyətlə, Azərbaycanın mədəni, sosial-iqtisadi inkişafı bədii ədəbiyyatda təsvir olunmalı, bu hadisələr teatr səhnəsində öz həllini tapmalıdır. Yaradıcılığımın böyük bir hissəsi Ulu Öndər Heydər Əliyevin dövlətçilik fəaliyyəti ilə bağlıdır və qələmə aldığım "Qarabağ şikəstəsi" əsəri 1990-1993-cü illərdə respublikamızda baş verən ictimai-siyasi hadisələrə həsr edilib. "Qarabağ şikəstəsi" ssenarisində dahi siyasətçi, böyük şəxsiyyət Heydər Əliyevin Azərbaycanın ağır günlərində xalqın tələbi ilə siyasi hakimiyyətə qayıdışı, ölkənin xilası naminə tarixi xidmətlərindən, Qarabağ müharibəsindən, igid oğullarımızın ağır döyüş yollarından bəhs edilir. Əlbəttə ki, Qarabağ müharibəsində ermənilərin xalqımızın başına gətirdiyi fəlakətləri gələcək nəsillərə çatdırmaq missiyası tarixçilərlə yanaşı, yazıçıların, digər sənət adamlarının üzərinə düşür. Ümummilli Lider Heydər Əliyev haqqında ikinci əsərim "Fədakarlıq" adlanır. Əsər Sumqayıt Dövlət Dram Teatrında səhnələşdirildi və premyerası isə Akademik Milli Dram Teatrında uğurla keçirildi. "Əsrin möcüzəsi və ya üç dəniz əfsanəsi" əsərimi isə yaradıcılığımın son zirvəsi adlandırıram. Ulu Öndər Heydər Əliyevin əziz xatirəsinə həsr edilmiş əsər Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisindən bəhs edir. Hər zaman dövrün axarında olan mövzuları yardıcılığıma gətirmək bir yazıçı, dramaturq olaraq həmişə qarşıma vəzifə qoymuşam və "Əsrin möcüzəsi və ya üç dəniz əfsanəsi" müasir tariximizlə səsləşən uğurlu əsərlərimdəndir. Üçüncü dəfə Dahi Şəxsiyyət Heydər Əliyevlə bağlı mövzuya müraciət etməyimin səbəbi odur ki, Ulu Öndərin adını daşıyan Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisi Azərbaycan tarixində misli görünməmiş nailiyyət idi. Ona görə də bu layihənin tarixi-siyasi qiymətini nəzərə alaraq, bədii həllini verməyə çalışmışam. Bu pyes Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisindən bəhs edir. Bu kəmərin işə düşməsi respublikamızın dinamik inkişafı, xalqımızın maddi rifahının yüksəlməsi deməkdir. Vaxtilə layihəyə əngəl olmağa çalışanlar da az olmadı. Lakin xalqımızın mənafeyini hər şeydən uca tutan Ulu Öndər Heydər Əliyev iradəli dövlət rəhbəri kimi siyasi-diplomatik məharət göstərərək əks tərəflərin bütün cəhdlərini boşa çıxardı. "Əsrin möcüzəsi və ya üç dəniz əfsanəsi" dramını beş ilə yazmışam. Etiraf edim ki, heç bir əsərim üzərində bu qədər müddət ərizində işləməmişəm. Əsər 2014-cü ildə Gəncə Dövlət Dram Teatrında səhnələşdirildi. Tamaşanın sonunda monitor vasitəsilə müasir Azərbaycanın dünya arenasında qazandığı misilsiz nailiyyətləri, respublikamızın bugünkü inkişafı video-görüntü ilə nümayiş olundu.

**- Marat müəllim, Heydər Əliyev adını daşıyan Bakı-Tbilisi-Ceyhan zəmanəmizin ən nəhəng mühəndis qurğusu hesab olunur. Onu hətta 21-ci əsrin möcüzəsi hesab edirlər. Sizcə, bu, doğrudanmı belədir?**

- Mən kəmərə verilən qiymətlərlə tam razıyam, amma onu da qeyd etmək mütləq lazımdır ki, Ulu Öndər Heydər Əliyevin mübarizliyi uzaqgörənliyi və nüfuzu olmasaydı, Bakı-Tbilisi-Ceyhan da olmayacaqdır. Bunu deyən təkcə biz deyilik. Bütün dünya bu həqiqəti etiraf edib və təsdiqləyib. Bakıdan Ceyhana qədər keçilən çətin və şərəfli yol xalqımızın Dahi Oğlu və Ümummilli Lider Heydər Əliyevin parlaq və real neft strategiyasının qələbəsidir. Bu strategiyanın həyata keçirilməsi, respublikanın hərtərəfli dinamik inkişafı, nüfuz və mövqeyini beynəlxalq arenada möhkəmləndirilməsi milli təhzlükəsizliyin yüksək səviyyədə təmin olunması deməkdir. Bu gün bu strategiyanı möhtərəm Prezident İlham Əliyev uğurla davam etdirir. Qeyd edim ki, əsərin birinci variantı "Üç dəniz əfsanəsi" Mədəniyyət və Turizm Nazirliyinin 2013-cü il üçün təsdiq etdiyi repertuar planına salınır və əsərin hazırlanması Gəncə Dövlət Dram Teatrına həvalə olunur. Teatrın maddi və texniki bazası zəif, aktyorları az olduğundan əsəri səhnədə tam həcmdə əks etdirmək mümkün olmadı.

Azərbaycan Yazıçılar Birliynin "Literaturnı Azərbaycan " aylıq ədəbi bədii jurnalı "Üç dəniz əfsanəsi" ("Leqenda tryox morey") dram əsərini bəyənərək "Əsrin müqaviləsinin" 25 illiyi (Kontrakt Veqa-25) münasibəti ilə 2019-cu ilin oktyabrında tam həcmini çap etmişdir. Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar olaraq "Üç dəniz əfsanəsi" əsəri üzərində əsaslı şəkildə işləyib onu "Əsrin möcüzəsi və ya üç dəniz əfsanəsi" adlı daha mükəmməl dram əsəri və bədii film ssenarisinə çevirmişəm. Milli Məclisin deputatı, akademik Nizami Cəfərovun rəhbərlik etdiyi Azərəbaycandakı Atatürk Mərkəzi "Əsrin möcüzəsi və ya üç dəniz əfsanəsi" əsərini bəyənmiş və əsər Elm və Təhsil Nəşriyyatı tərəfindən ayrıca kitab şəklində nəşr edilmişdir.Xatırladım ki, dünyada analoqu olmayan Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin layihəsinin gerçəkləşməsi yolunda yaranan ciddi mane və problemlərin, terror və təxribatların aradan götürülməsi, müqəddəs dinimizə, milli-mənəvi dəyərlərimizə göstərilən daimi diqqət və qayğı, ölkəmizdə hökm sürən tolerantlıq, eləcə də çoxəsrlik tarixində özünün ən uğurlu və parlaq dövrünü yaşayan azad və müstəqil Azərbaycan həqiqətləri - Prezident İlham Əliyev və Birinci vitse-Prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə ölkəmizin bütün həyati əhəmiyyətli sahələrinin inkişafında qazandığı misilsiz nailiyyətlər, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz tərəfindən işğalda olan torpaqlarımızın azad olunması, Azərbaycan - Türkiyə dostluğu və qardaşlığı "Üç dəniz əfsanəsi" əsərinin yenidən əsaslı surətdə işlənmiş mövzusunu təşkil edir. Odur ki, əsər yenidən çapdan çıxır: "Əsrin möcüzəsi və ya üç dəniz əfsanəsi".

- Maraqlıdır, Marat müəllim, siz hər dəfə bu möhtəşəm neft kəmərini uğurla başa çatan tikintisini xatırlayarkən onun diqqətçəkən panoramını nəzərdən keçirəndə müəllif kimi indi hansı hissləri keçirirsiniz?

- Olduqca xoşbəxt və fərəhləndirici. Ulu Öndərimiz Heydər Əliyevin möhtəşəm əsəri olan Bakı-Tbilisi-Ceyhan neft boru kəməri uğurla fəaliyyət göstərir. Ölkəmiz çiçəklənir və hərtərəfli dinamik inkişaf edir. Bu kəmər Azərbaycan-Gürcüstan-Türkiyə dostluq və əməkdaşlığının iş və amal birliyinin möhkəm təməlini təşkil edir və bu əməkdaşlıq təkcə Azərbaycan üçün deyil, eyni zamanda Qərbin və dünyanın bir sıra aparıcı dövlətlərinin enerji təhlükəsizlinin təmin olunması üçün böyük əhəmiyyət kəsb edir. Bakıdan Ceyhana axan ölkəmizin əsas sərvəti sayılan Xəzər nefti azad və müstəqil Azərbaycan dövlətinin adını və şöhrətini ölkələrdən- ölkələrə, ellərdən-ellərə yaymaqdadır. Dünya əhəmiyyətli bir neft kəmərinin başa çatdırılması Ulu Öndərimiz Heydər Əliyevin siyasətini böyük bacarıqla və qətiyyətlə həyata keçirən Azərbaycanın bugünkü Prezidenti İlham Əliyevin məqsədyönlü fəaliyyəti sayəsində mümkün olmuşdu. Həyatının mənasını vətəninə və xalqına sədaqətlə xidmətdə görən möhtərəm Prezident İlham Əliyev xanımı Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti, Azərbaycanın Birinci xanımı Mehriban Əliyeva ilə birlikdə respublikanın iqtisadi qüdrətinin və beynəlxalq nüfuzunun durmadan artması, xalqımızın maddi rifahının yüksəlməsi və xoşbəxt gələcəyi naminə gecəli-gündüzlü yorulmadan çalışırlar.

Əsərin sonunda ekranda çoxəsrlik tarixində özünün ən uğurlu və parlaq dövrünü yaşayan bugünkü azad və müstəqil Azərbaycan həqiqətləri: -Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə ölkəmizin bütün həyati əhəmiyyətli sahələrinin dinamik inkişafında qazandığı misilsiz nailiyyətlər, Vətən müharibəsində rəşadətli ordumuzun, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Qarabağ torpaqlarının işğaldan azad olunması sənədli kadrlarla canlanır.Əsər Azadlıq meydanında Vətən müharibəsində qələbəyə həsr olunmuş Zəfər Paradı və paradda Azərbaycan və Türkiyə Respublikasının prezidentlərinin fraqmentlərlə çıxışı sənədli kadrlarla nümayiş olunur və müəllifin aşağıdakı sözləri ilə sona çatır. Ulu Öndər, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şah əsəri olan, bütün dünyada tanınmış tolerant və multikultural həyat tərzi yaşayan, gündən-günə daha sürətlə inkişaf edən, qüdrətlənən müasir və müstəqil Azərbaycan qardaş Türkiyə ilə birlikdə beynəlxalq aləmdə ən yüksək zirvələr fəth edəcək!

**Azərbaycan-Türkiyə birlikdə ucalacaq!**

**Birlikdə bu dünyaya günəş kimi doğacaq!**

**- Göründüyü kimi, zəngin bir ömür yolunun müəllifisiniz. Bu yolda onilliklərin zəhməti və bəhrəsi var. Arzularınıza nəzər salmaq maraqlı olardı, Marat müəllim.**

- Bütün xatirələrim mədəniyyətlə, sənətlə bağlıdır. Valideynlərimin sayəsində elə bir mühitdə böyüdüm ki, sonradan həyatım bütünlüklə bu sahə ilə bağlı oldu. Mən həmişə vətən, ədəbiyyat qarşısında borcumu yerinə yetirməyə çalışmışam. Qəti mövqeyi olan, ömrünün payız fəslini yaşayan 85 yaşlı bir yazıçı, bir vətəndaş kimi ən böyük arzum "Əsrin möcüzəsi və ya üç dəniz əfsanəsi" əsərimi geniş yaradıcılıq imkanları olan paytaxt teatrlarının birində səhnələşdirilməsini və onun bədii film ssenarisini ekranda görməkdir.

***Müsahibəni apardı: Zümrüd BAYRAMOVA***

# Gənc ailələrlə sosial iş NECƏ APARILMALI?

***“Ailə cəmiyyətin əsas sosial institutlarından biridir. Sosial funksiyalar yerinə yetirən ailə cəmiyyət həyatında böyük əhəmiyyət daşıyır. Əslində dərindən təhlil etsək ailə institutunun mövcudluğu, onun gələcək inkişafı dövlətdə çox ciddi düşündürməlidir”. Bu sözləri SİA-ya açıqlamasında sosioloq Ağasəlim Həsənov bildirib.***



Onun sözlərinə görə, bir ölkə üçün əhali artımı məsələsi ilk öncə ailə institu ilə bağlıdır: “Ona görə də yeni qurulan ailələr, münasibətlər, ailənin möhkəmliyi, inkişafı həm cəmiyyət həyatı üçün, həm də dövlət üçün böyük əhəmiyyət daşıyır. Bir fərd dünyaya gəldiyi ailədə öz doğma dilini mənimsəyir, məktəbə getməzdən əvvəl uşaqlar doğulduğu ailədə öz dillərini eşidir və ailənin mənsub olduğu milli, dini dəyərləri mənimsəyirlər. Tədricən yaş mərhələlərinə keçdikcə bu ailənin üzərinə düşən bu sosiallaşma funksiyası digər sosial institutlarda davam edir. Müasir dövrdə Azərbaycanda sosioloji müşahidələrimiz göstərir ki, cütlüklər arasında əlbəttə ki, normal münasibətlərin qurulduğu ailələrimizin sayı kifayəf qədərdir. Lakin açıq etiraf etməliyik ki, ən azından bugünki boşanmaların, ailədaxili münaqişələrin statistik göstəriciləri belə deməyə imkan verir ki, kifayət qədər problemlər də var. Əgər problemlər olmasaydı, təbii ki sual yaranardı. Nə üçün bu qədər boşanmaların sayı artan tendensiya üzrə inkişaf edir? Deməli münasibətlərdə hansısa gərginliklər var və bu səbəbdən boşanmaların sayı artır, xoşagəlməz məsələlər müşahidə olunur.

Mən bu gün ailələrdə baş verən xoşagəlməz hadisələr, cütlüklərarası anlaşılmazlıqlar, münasibətlərdəki gərginlik və bu gərginliyi yaradan səbəblər, amillər haqqında çox geniş danışa bilərəm. İlk çıxış yolu maariflənməkdir, çünki əgər biz gənc ailələrdən bəhs ediriksə maarifləndirici tədbirlərinə ehtiyac olduğunu düşünürəm. Cütlüklər ailə qurmağa nə qədər hazırdır? Yəni ailə qurmamış Azərbaycan gəncləri arasında və yaxud da ailə quracaq gənc ailə kateqoriyası ilə iş aparılmalıdır. Biz gözləməli deyilik ki, gənclər ailə qursunlar münasibətlərdə gərginliklər sonradan yaransın, heç düşünmədikləri problemlərlə üzləşdikləri zaman bu münasibətlərin kəskinləşdirməsinə gətirib çıxartsın. Ona görə də prosesə daha əvvəldən gənclər arasında ailə dəyərləri ilə bağlı geniş, maarifləndirici işlərin aparılmasına hər zaman ehtiyac var. Biz nəzərə almalıyıq ki, müasir gəncin bu gün virtual olaraq geniş ünsiyyət yaratmaq imkanları yaranıb. Münasibətlər yeni bir xarakter alıb və yaxud o informasiya texnologiyalarının yaratdığı yeniliklərdən müasir gənclər nə dərəcədə pozitiv istiqamətdə faydalanmış olurlar. Maarifləndirici işimizin mahiyyətində gəncləri zərərli vərdişlərdən uzaq durmağa yönəlik fəaliyyətlər olmalıdır. Bu istiqamətdə biz dövlət, cəmiyyət olaraq çox ciddi iş aparmalıyıq. Müəyyən zamandan sonra onun müsbət nəticələrini də görə bilərik. Gənc ailələrdəki münasibətlərdəki gərginlik çox zaman həyat bilgisinin, təcrübəsinin çatışmazlığı ucbatından olur və orada sosial-psixoloji amillər də rol oynayır, biz bunu inkar edə bilmərik”.

A.Həsənov tövsiyyə edir ki, gənclər ailə qurmazdan əvvəl bir-birini kifayət qədər dərindən tanımağa cəhd göstərsinlər, meyil etsinlər, öyrənsinlər: ”Çünki dünyagörüşlər, fərdlərin önəm verdiyi dəyərlər sistemi, həyata dair baxışlar fərqli ola bilər, yəni tanıdıqdan sonra qərar vermək lazımdır. Zahiri görünüşcə bir-biri üçün cazibədar olan fərdlər, sosial psixoloji baxımdan bir-birinə zidd xarakaterə sahibdirlər və bu əlbəttəki sonda münaqişələrə, boşanmalara gətirib çıxaracaq. Digər tərəfdən isə artıq bu fakt kimi bizim qarşımızdadırsa və kifayət qədər gənc ailələrdə problemləri görürüksə, geri dönüş yolu arzuolunan deyil.

Gənc ailələrlə sosial iş aparılmalıdır. Qeyd edim ki, Azərbaycanda sosial iş ixtisası universitetlərdə artıq açılıb və bu ixtisas üçün tələbələr qəbul edilir. Artıq bu sahə, istiqamətlər üzrə müxtəlif işçi kadrlar universitetlərdə hazırlanmaqdadır. Ölkəmizdə demək olar ki, ailə psixoloqlarına nadir hallarda rast gəlinir. Əslinə qalanda biz inkişaf etmiş bir çox ölkələrdən nümunələr gətirə bilərik ki, hər ailənin daimi olaraq yaşadığı ərazidə müraciət etdiyi psixoloqlar var. Hətta onlar evə gələ bilir, yerindəcə yardım edə bilirlər. Gənc ailələr ümumiyyətlə həssas katoqoriyaya daxildir və istər sosioloq, istərsə də psixoloqlar gənc ailələrlə iş aparmalıdır.

Bunu ailə özü qarşılamalıdır və Azərbaycanda buna nə qədər ailələrin imkanı çata bilər? Risk qrupuna daxil olan ailələri müəyyənləşdirib, dövlət dəstəyi ilə sosial işçilərin ailələrə göndərilməsi, onlara sosial yardımın göstərilməsi işinin təşkili çox müsbət nəticələr verə bilər. Ailə cəmiyyətin ən mühüm institudur, ailə cəmiyyət həyatı üçün vacib funksiyalar yerinə yetirən bir sosial institdur və biz onun sadəcə bir neçə funksiyasından bəhs etdik. Ona görə də ailənin qorunması, inkişaf etdirilməsi dövlət tərəfindən də həyata keçiriləcək əhəmiyyətli, nəticə verə biləcək tədbirlərdən də asılıdır. Gənclər ailənin dəyərini bilsinlər, ailə dəyərlərinə sadiq qalsınlar və ailədaxili münaqişələrin çıxmamağı üçün münasibətlərin normal səviyyədə inkişaf etməsi üçün qarşılıqlı anlaşma mühiti yaratsınlar. O zaman ailədaxili münaqişələr riski mininuma enəcək və ailə bir sosial institut olaraq daha da möhkəmlənəcək. Azərbaycanın bütün ailələrini, özəlliklə də gənc ailələrini belə görmək istəyirik”.

# Ermənistanın konstitusiyası və gerbi dəyişdirilir, amma...

## Ağrı dağı, cizgi filmi quşu və smaylik şir

Məlum olduğu kimi, son günlər Ermənistanda konstitusiya islahatlarının aparılacağı və bu ölkənin ana yasasında köklü dəyişikliklərin ediləcəyi ətrafında kəskin, daha çox isə ziddiyyətli polemikalar aparılmaqdadır. Yeni konstitusiyanın isə cari konstitusiyadan tam fərqli olacağı bildirilir. Orada nə ”soyqırımı”, haqqında, nə də qonşu respublikaların ərazilərinə iddialar (miatsum və s.) kimi müddəaların, eləcə də digər mövcud bəndlərin olmayacağı bildirilir.



### Alen Simonyan ölkə gerbini ələ salan bəyanat səsləndirib





Bütün bunlarla yanaşı, Ermənistanın gerbinin də dəyişdirilməsi barədə ilk siqnallar verilməkdədir. Ölkə parlamentinin spikeri Alen Simonyan isə bütövlükdə ölkə gerbini ələ salan bəyanat səsləndirib. Qartalı cizgi filmi quşuna, şiri isə smaylikə bənzədən erməni spiker Ağrı dağının yeni gerbdə olmayacağı, həmçinin, Ermənistanın nə zamansa ”böyük su altında qalmasını” əks etdirən nağılın da erməni xalqına başucalığı gətirmədiyini etiraf edib. Məhz bütün bunlardan sonra erməni ictimaisiyasi rəyində kəskin qarşıdurmalara start verilib. Müxalifət təmsilçiləri isə iddia edirlər ki, bu kimi qərarların verilməsi Azərbaycanın Ermənistan qarşısında qoyduğu şərtlər əsasında yer alır və əslində, burada bəzi həqiqətlərin olduğu da görünməkdədir. Daha dəqiq desək, Ermənistan parlamentinin spikeri Alen Simonyan yeni konstitusiyanın qəbul edilməsi məsələsinin Azərbaycanla görüşlərdə müzakirə edildiyini istisna etməyib və hətta buna işarə də vurub.

### Ermənistan tərəfi paralel olaraq Azərbaycan Konstitusiyasının bir sıra bəndlərindən qorxduqlarını, çəkindiklərini də etiraf edib

Maraqlı məqamlardan biri də budur ki, Ermənistan tərəfi paralel olaraq Azərbaycan Konstitusiyasının bir sıra bəndlərindən qorxduqlarını, çəkindiklərini də etiraf edib. Misal üçün: Simonyan iddia edir ki, Azərbaycan Konstitusiyasında, Azərbaycanın hüquqi aktlarında da ”dəyişdirilməli” olan müddəalar var (?!)

Ancaq erməni spiker söhbətin hansı maddələrdən getdiyini açıqlamayıb. O, sadəcə, erməni ictimai rəyi arasından ”çulunu sudan quru çıxarmaq” üçün bu ifadələri işlədib. Halbuki Azərbaycanın Ana Yasasında, yaxud Müstəqilliyin Bərpası haqda Konstitusiya Aktında Ermənistan üçün təhlükə ola biləcək, yaxud onları maraqlandıra biləcək müddəa mövcud deyil. Sadəcə, müasir Azərbaycan Respublikası tarixi ADR-in xələfidir.

### Bu görüntü Ermənistan hökumətinin erməni xalqının başına ”ip salıb-oynatması” mənzərəsini daha çox qabardır

Lakin Ermənistanın müstəqillik bəyannaməsində Azərbaycandan fərqli olaraq qondarma “miatsum”dan bəhs olunur, açıq şəkildə Qarabağa iddia edilir və konstitusiya bu bəyannamənin müddəalarının icrasını vəzifə olaraq müəyyənləşdirir.

Beləliklə də, Alen Simonyanın iddiasının Ermənistan siyasi seqmentində yeni konstitusiya istəyinin Bakının sifarişi olduğu haqda ittihamlara qarşı hesablandığı görünür. Yəni, Simonyan ”sübut” etməyə çalışır ki, İrəvan da guya Bakı qarşısında hər hansı ”fakt” qoyub və s. Əlbəttə ki, bu görüntü Ermənistan hökumətinin erməni xalqının başına ”ip salıboynatması” mənzərəsini daha çox qabardır. Təbii ki, məğlub olmuş, kapitulyasiya sənədinə imza atmış bir ölkənin qalib dövlət qarşısında şərt irəli sürməsi qeyri-inandırıcı olması ilə yanaşı, həm də kifayət qədər gülünc görünür...

ANALİTİK

***Afət Tahirqızı***





# ABŞ marionetlərinin Azərbaycana qarşı Avropa demarşı

***Azərbaycanın bir sıra Avropa ölkələri və ümumavropa təşkilatları ilə münasibətlərindəki vəziyyəti bu gün qənaətbəxş adlandırmaq olmaz. Bu da Bakının günahı deyil. Hər kəs Avropa Şurası Parlament Assambleyasının divarları arasında Azərbaycana qarşı demarşın necə qurulduğunun və bunun nə ilə nəticələndiyinin şahidi oldu. Ancaq bəziləri üçün bu kifayət deyildi.***

Hollandiyanın xarici işlər naziri Hanke Bruins Slot ölkə parlamentinin xarici əlaqələr komitəsinin iclasında bildirib ki, Azərbaycanın son bəyanatları narahatlıq doğurur. O, Bakını sanksiyalarla hədələyib, həmçinin Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması prosesi ilə bağlı bir sıra mənfi bəyanatlar verib.

Bu hücum da cavabsız qalmadı. Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Niderland parlamentində xarici işlər nazirinin çıxışını şərh edərkən deyib ki, Hanke Bruins Slotun Azərbaycana qarşı ittihamlarla çıxış etməsi qəbuledilməzdir.

"Təəssüf ki, Niderland Krallığının rəsmisi növbəti dəfə parlament nümayəndələrinin sorğusuna cavab olaraq ittiham xarakterli bəyanatla çıxış edərək Azərbaycan tərəfinin bəyanatlarını açıq şəkildə təhrif edib. Avropa ölkələrinin rəsmiləri tərəfindən belə məsuliyyətsiz bəyanatlar ilk dəfə deyil. Onlar Azərbaycanın daxili işlərinə qarışmaq cəhdləri ilə yanaşı, regionumuzda münaqişədən sonrakı reallıqlara qərəzli münasibətin nümunəsidir",- Hacızadə bildirib.

O qeyd edib ki, bu cür bəyanatlar, eləcə də Azərbaycana qarşı sanksiyalar tətbiq etmək təhdidləri Hollandiya və ümumilikdə Avropa İttifaqı ilə ikitərəfli münasibətlərə zərbədir. "Niderland xarici işlər nazirinin ölkəmizə səfər etmək niyyətinə gəlincə, qeyd edirəm ki, bu səfər Azərbaycan tərəfindən təxirə salınıb. Azərbaycan tərəfi bəyan edib ki, səfər zamanı Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması prosesini və ya ölkəmizin daxili məsələlərini deyil, yalnız ikitərəfli münasibətləri müzakirə etmək niyyətindədir. Biz Hollandiya tərəfini beynəlxalq hüququn norma və prinsiplərinə hörmət əsasında regionun gələcək inkişafına və tərəqqisinə mane olan bu cür bəyanatları dayandırmağa çağırırıq",- Hacızadə bildirib.

Beləliklə, baş verənləri necə izah edə bilərik? Bu cür hücumların arxasında Avropada hansı qüvvələr dayana bilər? O tərəfdən əlavə "zərbələr" gözləmək olarmı, yoxsa ümid varmı ki, onlar özlərinə gəlib Azərbaycanın əleyhinə getməyəcək, onun Avropa üçün vacib, lazımlı və etibarlı tərəfdaş olduğunu başa düşəcəklər və vəziyyət, əlaqələri hansısa yolla düzəltməyə çalışacaqlar?

Tanınmış xarici şərhçilər bu sualları "Caliber" analitik mərkəzinə cavablandırıb. Ekspertlərin fikirlərini oxucularımıza təqdim edirik.

Rusiyalı politoloq, PolitRUS ekspert analitik şəbəkəsinin rəhbəri Vitali Arkov hesab edir ki, nə bütövlükdə Avropa İttifaqı, nə də onun üzvlərinin əksəriyyəti (Hollandiya, digərləri) çoxdan siyasətin subyekti olmayıb. Və bu ölkələrdə könüllü və ya qeyri-ixtiyari rəhbər vəzifələr tutanlar, həqiqətən də, əsas sahələr üzrə mövqeyi müəyyən edənlərin marionetləridir.

"İlk növbədə, bu, əlbəttə ki, ABŞ-dır- Bakı ilə Vaşinqton arasında münasibətlər indi gərgindir, ona görə də Ağ Evin öz marionetlərinə müvafiq əmri verməsi heç də təəccüblü deyil.



Unutmamalıyıq ki, Avropa İttifaqı heç vaxt bərabər hüquqlu bir birlik olmayıb. Göründüyü ilk günlərdən Almaniya onun açıq lideri idi və buna görə də "Dördüncü Reyx" adlandırılması təəccüblü deyildi. Bu vəziyyət təbii idi, çünki Berlin ümumAvropa xərclərinin əhəmiyyətli hissəsini öz üzərinə götürdü. Alman iqtisadiyyatı bunu ödəyə bilərdi, çünki... Rusiya ilə sıx tərəfdaşlıq əsasında sürətlə inkişaf etdi. Britaniya Avropa İttifaqını ələ keçirmək arzusunda idi, lakin London bunun praktikada qeyri-real olduğuna əmin olduqdan sonra BrExit-i işə saldılar. Əvvəllər olduğu kimi, bu, Polşanın hakim dairələri üçün ideya həllidir",- Arkov qeyd edib.

"Dəmir" kansler Angela Merkelin "təmiz" kansler Olaf Şolzla əvəzlənməsindən sonra Avropa İttifaqına nəzarət rıçaqlarını da uzun müddət öz hakimiyyətini bərpa etmək arzusunda olan Fransa ələ keçirdi.

"Bakı ilə Paris arasında, bildiyimiz kimi, hazırda münasibətlərin səviyyəsi də yaxşı deyil. Bunun səbəbləri haqqında bir neçə dəfə danışmışıq.

Bütün bunların fonunda Hollandiya Xarici İşlər Nazirliyinin rəhbərinin, eləcə də bir sıra digər Aİ ölkələrinin siyasətçilərinin sərt və qəbuledilməz bəyanatları qeyri-adi bir şey deyil. Son həftələrdə Avropada bütün siyasi istiqamətlərdə müşahidə olunan antiazərbaycan kampaniyasının güclənməsi, məncə, Azərbaycanda növbədənkənar prezident seçkiləri ilə bağlıdır. Və bu baxımdan ABŞ və Fransadan asılı olan Avropa İttifaqı siyasətçilərinin bəyanatlarını eşitmək heç də təəccüblü deyil.

İnanıram ki, müstəqil Azərbaycan Avropa ağcaqanadlarının bütün bu vızıldamalarına məhəl qoymayacaq, şantajlara boyun əyməyəcək. Avropa İttifaqı Azərbaycanla iqtisadi, xüsusilə enerji, nəqliyyat və logistika tərəfdaşlığında son dərəcə maraqlı olduğuna görə, yazda biz təkcə atmosferdə deyil, həm də Avropa siyasətçilərinin ritorikasında istiləşməni gözləmək olar",- Arkov hesab edir.

Kiyev Dünya Siyasəti İnstitutunun direktoru Evgen Maqda öz növbəsində qeyd edib ki, AŞPA-nın Azərbaycan nümayəndə heyətinin səlahiyyətlərini tanımaqdan imtina etməsi Bakı ilə Avropa arasında münasibətlərdə soyuqlaşma dövrünün başladığını göstərə bilər.

"Bəzi ekspertlər hesab edir ki, Bakı Avropa ilə yaxınlaşmaqdan dönüş edəcək. Ancaq bu məsələdə mən anlamaq istərdim ki, Azərbaycan və Avropa İttifaqı bundan hansı fayda əldə edəcək? Postsovet dövlətini "demokratiyanın qeyri-kafi səviyyədə olması"na görə tənqid etmək o qədər də çətin məsələ deyil. Siz kifayət qədər çox oxşar məqamlar tapa bilərsiniz və eyni zamanda müəyyən bir mövqe yaratmaq üçün problemlərə gələ biləcəyiniz kifayət qədər çox səbəb tapa bilərsiniz.

Amma hesab edirəm ki, Azərbaycanla Aİ arasında soyuqlaşma nəinki Rusiyanın bu məkana daha fəal daxil olmasına, həm də prinsipcə, Avropa ölkələrinin Azərbaycanda transformasiya proseslərinə təsir imkanlarının əhəmiyyətli dərəcədə dəyişəcəyinə gətirib çıxara bilər. Eyni zamanda, çətin ki, siyasi əlaqələrin yox olması iqtisadi əlaqələrin artması deməkdir. Tam əksinədir",- ukraynalı analitik əmindir.

O xatırladır ki, daha bir fakt var- Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanması prosesinin başa çatdırılmasının zəruriliyi faktı.

"Azərbaycanla münasibətləri soyudan Avropa İttifaqı bu məsələdə necə vasitəçilik etməyi planlaşdırır? O, bu məsələdə uğur qazana biləcəkmi? Bu mənim üçün sirr olaraq qalır. Mən əmin deyiləm ki, Avropa bu sahəni Rusiya və ABŞ-a verməyə hazırdır. Amma hazırda onun addımlarının və metodlarının nə olacağı barədə heç bir fikrim yoxdur", - Maqda çiyinlərini çəkir.

***Tərcümə - Elçin Bayramlı***

ANALİZ



**Mətanət Məmmədova**

# Gəncliyi bizlərdən qoparan illər…

***İllər... O illər həm də gözəlliyimizi və yaraşığımızı bizdən alır. Lakin fərqində olmuruq, düşünürük ki, elə həmişə belə görünəcəyik. Bu gözəlliyi, yaraşığı kim əlimizdən ala bilər ki? Bu, bizə məxsusdur. Bunu Yaradan verib bizə, bizim də olacaqdır. Lakin illər axı bunu demir, illər başqa sözlər söyləyir və söylədiklərinin hər birini həyat bizə yaşadır.***

Elə ki, gəncliyin son akkordlarını dinləyirik, bundan sonra başlayırıq yavaş-yavaş yaşlanmağa. Hələ də gənclikdən əlimizi üzmürük. Düşünürük ki, yox, o, əlimizdən hara gedə bilər ki?.. Lakin gedir, həm də sürətlə gedir. Getdikcə də zərbələrini vurur. Biz anlayanda ki, yox, ta o gənclikdən heç nə qalmayıb, başlayırıq onu yenidən axtarmağa. Bunun üçün axtarışlar edirik, nələrə əl atırıq, nə əziyyətlər çəkirik, zəhmət sərf edirik, lakin gəncliyi daha heç yerdə tapa bilmirik.

Yaşlanırıq Gəncliyin son nişanələrini itiririk. İtirdikcə də ən dəyərli nəyisə itirdiyimizi hiss edirik. Deyirlər, adam nəyisə itirəndə, ölənədək gözü onu axtarır. Bax, bir də gənclik belədir. Baxırsan ki, yaş ötüb, olub 50-60, sən hələ də onu-gəncliyi axtarırsan. Gözlərin hər yerdə onu gəzir. Fotoları tökürsən qarşına, başlayırsan onlarla danışmağa. Kimlərəsə o şəkilləri göstərməklə gəncliyini göstərmək istəyirsən. Sənin də gənclikdə gözəl və yaraşıqlı olduğunu sübut etmək, hamının bilməsini istəyirsən.

Lakin bunlar da keçicidir. Andır, anlar isə keçir, gedir. Sənsə olduğun yerdəsən. Daha gənc deyilsən, yaşlanmaqdasan. Bax bu an ürəklər sızlayır. Düşünürsən ki, ah, nə tez ötüb getdi gəncliyim. Kaşki bir daha dönərdim o çağlara. Kaşki yenidən gənc olardım. Kaşki o illərin bircə anını geri qaytara bilərdim. Təəssüf ki, mümkün deyil. Gənclik getmişdir, yerinə yaşlılıq gəlmişdir. Ta sənin yol yoldaşın təravət deyil, soluxmuş üz, qırışlı əllərdir. Nə qədər çalşsan da, şux qamət deyil, o sürətli addımlar deyil, əyilmiş qamətinlə yavaşıyan addımlardır. Sənin yolyoldaşın günəşin zərrin şəfəqlərində parıldayan saçlar deyil, yıpranmış, ağarmış, daha parlamayan saçlardır.

Bəs ürəklər Bəli, tək ürəyin gəncliyini bizdən qoparmağa heç bir qüvvənin gücü çatmır. İçimizdə, köksümüzdə bəlkə də o da qocalır, bilmirəm kiçilirmi deyim, yaşlanma səbəbindən formasını itirirmi deyim, lakin istəkləri, həyata baxışı, dəyişmir. O, gənclik duyğuları ilə yaşayan və bu duyğuları hər an insana anladan tək olanımızdır. Bəlkə elə buna görə deyirlər ki, ürək qocalmır. Qocalmır, bəli. Gənclikdən bizə qalan tək ürəklərimizdir. Bəlkə də tək ürək qocalmır ki, gəncliyi hər an insana anlatsın. Nə qədər gözəl bir dövrün əldən getdiyini hər an xatırlada və deyə ki, insan övladı, nə üçün qədrini bilmədin gəncliyin. Bəli, elə bu səbəbdən ürəyin qocalmamasına hökm verilib, inanın

Beləcə, həyatda qiymətini biləcəyimiz, borclu olacağımız çox şeylər var. Gənclik də onlardan biridir. Gözəlliyimiz,yaraşığımız ilə birlikdə fəal, aktiv iş həyatımız da gəncliklə bağlıdır. Dünyaya övlad bəxş etməyimiz, onu böyük səbrlə böyütməyimiz də gəncliyin bəxşişidir. Ev qurmaq, ev sahibi olmaq da gəncliyin ərməğanıdır. Sözün həqiqi mənasında, bütün gözəl görünən hər şey gənclikdədir. Yaşayarkən qədrini bilmədiyimiz, sonra çıraq işığında axtardığımız gənclikdə

Qədrini bilin gəncliyinizin, əziz gənclər. Həqiqətən də gəncliyi bayram etmək, onu xüsusi gün kimi qeyd etmək ən gözəl ənənələrdən biridir. Onu ildə bir gün deyil, hər gün bayram kimi xüsusi təntənə ilə anmaq lazımdır. Çünki insan övladına verilən ömrün dörd fəslinin ən gözəli gəncliyidir. Gənclik bahardır, yazdır. Çiçəkləri, rayihəsi ilə gözəldir. Rəngləri, rəngarəngliyi ilə gözəldir

*“Ev alarkən ödəniş edilən evin kvadratı ilə çıxarışda göstərilən ölçüsü eyni deyilsə, ev sahibi məhkəməyə müraciət etməklə MTK-ya qarşı haqlı tələbini irəli sürə bilər, qalan ödənişi ala bilər”. Bu sözləri SİA-ya açıqlamasında Azərbaycan Vəkillər Kollegiyasının üzvü Tural Həsənli deyib.*



Vəkilin sözlərinə görə, mənzil Tikinti Kooperativlərindən müqavilə ilə mənzil alan

# Alınan evin kvadratı çıxarışda az yazılıbsa, nə etməliyik?



vətəndaşlar sonradan əmlak çıxarışı alarkən əksər hallarda problemlə üzləşir: “ Çıxarışda mənzilin sahəsi müqavilədə göstərilən rəqəmlə uyğunlaşmır, sahə az hesablanır. Yeni tikilən çoxmənzilli binalarda sahələr artıq göstərilir, yəni vətəndaş aldadılır. Bir sıra tikinti şirkətləri tərəfindən çoxmənzilli binalardakı mənzillərin sahəsi bayır divarların üst səthindən ölçməklə hesablanır. Otaqlar və mənzillər arasındakı ara divarlar da ümumi sahəyə əlavə edilir. Bu hal tikinti şirkətinin “qələbəsi ilə başa çatan” qanunvericiliyin pozulmasıdır. Müqaviləyə yazılan mənzilin sahəsi ilə çıxarışda olan rəqəmlər fərqli olur. Belə ki, mənzilin sahəsi çıxarışda az göstərilir. Belə olduqda vətəndaş mənzili satarkən maddi müəyyən kvadratın pulunu itirmiş olur. Bu hal qanunlardakı boşluqlardan irəli gəlir. Qeyd edilən halların baş verməməsi üçün mütləq nəzarət mexanizmi olmalıdır.



Vətəndaşa dəyən zərər ödənməlidir. Əksər binalar satışı özünə sərf edən formada aparır. Ümumi sahə üzrə çıxarış (kupça) və müqavilədəki fərqi aşkar edən mənzil sahibinin tikinti şirkətinə müraciəti üzrə ödədiyi artıq pulu tələb edilə bilər. Tikinti şirkəti bundan imtina etdikdə, mənzil sahibi pozulmuş hüququnun bərpası ilə bağlı mübahisəni məhkəməyə müraciət etməklə həll edə bilər. Qanunvericiliyin tələblərinə əsasən, çoxmənzilli binalarda mənzillərin sahəsinin hesablanması Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Kollegiyasının 04.12.2012-ci il tarixli 07 saylı qərarı ilə təsdiq edilmiş “Tikinti obyektlərinin sahəsinin və həcminin hesablanması“ qaydalarına uyğun olaraq aparılmalıdır.

Qaydaların 3.2-ci bəndinə əsasən yaşayış binasında otaqların və digər yerləşgələrin sahələri divar və arakəsmələrin tamamlanmış səthləri arasında döşəmə səviyyəsində (plintuslar hesaba alınmadan) ölçülməklə təyin edilir. Yəni, otaqların sahəsi daxili divarın üst səthindən qarşıdakı daxili divarın üst səthinə qədər ölçülməklə hesablanmalı, yan və mənzilin daxilindəki arakəsmə divarların tutduğu sahə nəzərə alınmamalı və ümumi sahəyə əlavə edilməməlidir.

Soba və havalandırma üçün nəzərdə tutulmuş şaquli boşluqların yerləşdiyi sahə otağın və digər yerləşgələrin sahələrinə daxil edilmir.

Qaydaların 3.8-ci bəndinə əsasən balkon və terrasların sahələri, şüşəbənd və lociyalar, eyvanlar (verandalar) hesablanarkən müvafiq olaraq azaltma əmsalları tətbiq edilir. Belə ki, balkon və terrasların sahələri - 0,3; şüşəbənd və lociyalar - 0,5 azalma əmsallarına vurulmaqla mənzilin ümumi sahəsinə daxil edilir. Eyvanlar (verandalar) 1,0 azaltma əmsalına vurulmaqla mənzilin ümumi sahəsinə daxil edilir. Bəzi hallarda vətəndaşlar arasında balkon və eyvanın fərqi ilə bağlı anlaşılmazlıq yaranır.

İstər çox mərtəbəli yaşayış binalarından mənzil, istərsə də fərdi yaşayış evləri alarkən xüsusi məqamlara nəzər yetirilməlidir. Çünki bir çox hallarda qanunu bilməmək əlavə problem yaradar.

Çıxarışla daşınmaz əmlak, fərdi yaşayış evi alarkən vətəndaşlar bir qədər sığortalanmış olur. Yəni həmin mənzillər notariusdan keçir, notarial qaydada alqı-satqı olur. Amma burda yenə də diqqət edilməli bir çox məqamlar var.

Bir şəxs mənzil alarkən ilk növbədə həmin mənzillə baxış keçirməli, mənzilin çıxarışı ilə tanış olmalıdır. Mənzil alan şəxs onu çıxarış adına olan şəxsdən aldığına əmin olmalıdır, çıxarışda olan mənzil sahəsinin reallıqda olub-olmaması müəyyən edilməlidir. Çünki notariusa gedən zaman notarius mənzilin sahəsini ölçmür. Belə olan hallarda bəzən vətəndaşa hansısa böyük sahəni göstərib, satılarkən isə başqa sahə satılır. Mənzil alarkən Dövlət Reyester Xidmətindən arayış alınır. Bu arayış həmin mənzilin girovda olub-olmamasını müəyyən etmək üçündür. Amma vətəndaş hər zaman çıxarışda olan sahənin aldığı sahə ilə uyğun olub-olmamasına diqqət etməlidir.

Fərdi yaşayış evlərinin alqı-satqısında fərdi yaşayış evinin torpaq mülkiyyətinin xüsusi mülkiyyət ya bələdiyyə mülkiyyətində olması aydınlaşdırılmalıdır. Fərdi yaşayış evlərini alarkən mütləq evin əvvəldən qiymətləndirilməsinin aparılması məqsədəmüvafiq olardı. Mənzillər kimi, onlara fərdi yanaşma olmalıdır. Tikintisində istifadə edilən materiallara, evin konstruksiyasına, tikilişinə, sənədlərə diqqət edilməlidir. Torpaq sahəsinin real olmasına, evin göstərilən ərazidə tikilməsinə fikir verilməlidir. Vətəndaşlar da mütləq şəkildə çıxarışı olan fərdi yaşayış evlərini almağa diqqət etsinlər. Torpaq sahəsinin də xüsusi mülkiyyətdə olması nəzərə alınmalıdır”.

***Sevilin Abbasova***

# Müxalif dələduzlar bir mərkəzdə birləşir

***Fevralın 7-də keçiriləcək növbədənkənar prezident seçkilərinin vaxtı yaxınlaşdıqca dağıdıcı müxalifətin və onlara himayədarlıq edən xarici məkrli dairələrin qərəzli açıqlamalarının və anormal qərarlarının da miqyası artıb. Artıq məkrli tərəflər qərəzli qərarlarının Azərbaycan cəmiyyətində heç bir təsir reaksiyası doğurmadığını anladıqlarından əməli təxribatlar törətməklə fəaliyyətlərini yeni mərhələyə keçirməyə çalışırlar. Bu ssenarinin həyata keçirilməsində xaricdəki antimilli ünsürlərdən də istifadə edilməsi nəzərdə tutulur.***



Faşist rejiminin çiçəklənməyə başladığı Almaniyada ”Azərbaycanlı Siyasi Mühacirlərin Koordinasiya Mərkəzi” adlı qondarma qurumun yaradılması məhz Azərbaycana qarşı planlaşdırılan terror və pozucu aktların daha geniş formada həyata keçirilməsi məqsədindən xəbər verir. AXCP sədri Əli Kərimlinin və Milli Şuranın sədri Cəmil Həsənlinin ”Azərbaycanlı Siyasi Mühacirlərin Koordinasiya Mərkəzi”nin təşkilatçılarına təbrik mesajları ünvanlamaları və açıq tezislərlə onları Azərbaycanın milli və dövlətçilik maraqlarına qarşı sərt və təsirli təxribatlar törətməyə çağırmaları planların ciddi olduğunu göstərir. Bu baxımdan, sabah Bakı şəhərində eləcə də Azərbaycanın hansısa bölgəsində terror aktı törədilsə və ya vətəndaşlara hücumlar təşkil olunsa, bu, heç də gözlənilməz təəccüb doğuran hal kimi qiymətləndirilməyəcək. Çünki Azərbaycanın dağıdıcı müxalifəti, xaricdəki antimilli ünsürlər və onlara maddi, mənəvi dəstək göstərən ermənipərəst mərkəzlə beynəlxalq terrorizmin tərkib hissəsi kimi açıq şəkil də hədələyici açıqlamalarla çıxışlar edir, Azərbaycanın dövlətçiliyini təhdid edən fikirlər səsləndirirdilər. Bu baxımdandır ki, Azərbaycan cəmiyyəti hüquq-mühafizə orqanlarından pozuculuq aktları planlaşdıran məkrli qüvvələrin cəzalandırılmasını tələb edirlər. Hətta AXCP sədri Əli Kərimlinin, Milli Şuranın sədri Cəmil Həsənlinin və Müsavat başqanı Arif Hacılının ətrafında olan dövlətçi insanlar belə liderlərini sərt şəkildə tənqid edirlər. Yəni haqqın, ədalətin yanında olmaqla qərəzli mövqe sərgiləyən, şər və böhtanlarla çıxış edən, təxribatlar planlaşdıran dağıdıcı müxalifət partiya sədrlərini ifşa edirlər.

### Əli Kərimli Ben Kardindən sitat gətirir

Nə zaman kimsə Azərbaycan haqqında əsassız fikir səsləndirsə, dərhal dağıdıcı müxalifət onu özünəməxsus şəkildə şərh edib paylaşır. Düşünürlər ki, xaricdəki ermənipərəst dairələr Azərbaycanla bağlı qərəzli fikir söyləməklə düzgün və ədalətli mövqe sərgiləyirlər. Belə demək mümkünsə, onların mövqeyinə uyğun fikirlər ifadə edənlər ”haqqın”, ”ədalət”in carçılarıdırlar. Halbuki, hər kəsə gün kimi aydındır ki, Azərbaycana qarşı qərəzli fikirlər səsləndirənlər ya erməni lobbisinin üzvləridir, ya da Azərbaycanın dünya miqyasında əldə olunan uğurlarını həzm etmək istəməyən, qısqanclıqla yanaşan Almaniya, Fransa, ABŞ kimi məkrli dövlətlərdir. Fransa o dövlətdir ki, 44 günlük Vətən müharibəsində Azərbaycan 30 illik erməni işğalına son qoyub ərazi bütövlüyünü bərpa etdikdən sonra Fransa senatı erməniləri himayə edən, Ermənistana dəstək göstərən irticaçı qərarlar qəbul etdi, Makron hər fürsətdə ölkəmizlə bağlı qərəzli açıqlamalarla çıxış edib. Almaniya və ABŞ-da eyni ilə ermənipərəst mövqe sərgiləyiblər. Məhz faşist cərəyanın əsas ideoloqlarından olan Frank Şvabenin təklifi əsasında Azərbaycanın AŞPA-da səsvermə hüququnun məhdudlaşdırılması ilə bağlı qətnamə qəbul edildi. Qısası, Əli Kərimlinin, C.Həsənlinin və digər dağıdıcı ünsürlərin Azərbaycana qarşı olan bəlli düşmən mövqelərindən ruhlanaraq paylaşmalarının sayını artırmaları onların sağalması mümkünsüz olan xəstəliyə tutulduqlarını göstərir. Hətta o qədər xəstə təfəkkürə mübtəla olublar ki, barda alkaşın, küçədə narkomanın, səhnədə ağılsız rəqqasənin, siyasətdə erməni kökənli şəxsin Azərbaycanla bağlı istənilən sayıqlamasını bəh-bəhlə öz sosial şəbəkə hesablarında paylaşırlar. O günləri də Ə.Kərimli Ermənistanda doğulub, sonradan qaçqın kimi ABŞ-a sığınmış, hazırda isə ABŞ Senatının Xarici Əlaqələr Komitəsinin sədri olan Ben Kardininin Azərbaycan haqqında əxlaqsız açıqlamasını tirajlayıb: ”Ben Kardin Azərbaycan hakimiyyətini jurnalistlərin və müxalifətçilərin təqibini dayandırmağa çağırıb. Azərbaycanda jurnalistlərə hücumlar, müxalifət xadimlərinin qanunsuz həbsi və transmilli repressiyalardan istifadə etmə - antidemokratik taktikadır. Bakı COP29 ərəfəsində beynəlxalq ictimaiyyətin bir hissəsi olmaq üçün siyasi məhbusları azad etməli və bu təqibləri dayandırmalıdır”.

### Məhkəmə qərar qəbul edərkən bunu nəzərə alacaq

Bu məxluq hələ də anlamır ki, Azərbaycanın güclü və qüdrətli, sabit və demokratik dövlət olmasının bariz nümunəsidir ki, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının - COP29-un Tərəflər Konfransının 29-cu sessiyasının ölkəmizdə keçirilməsinə qərar verilib. Təbii ki, Azərbaycan konfransın ən yüksək formada həyata keçirilməsini təmin edəcək. Bunun üçün ölkəmizin hər cür resursları və imkanları mövcuddur. Digər tərəfdən COP29 konfransında siyasi məsələlər deyil, iqlim dəyişiklikləri müzakirə ediləcək. Ə.Kərimli bunu anlamırsa, buyurub 1995-ci ildən bəri hər il keçirilən konfransların proqramına baxa bilər. Ə.Kərimli ənənəvi moizəsini qeyd edərək iddia edir ki, guya ölkəmizdə siyasi məhbuslar var. Lakin həmin siyasi məhbusların kimlər olduğunu açıqlamır. Bu da onu deməyə əsas verir ki, Ə.Kərimli boşboğazlıqdan başqa bir şey bacarmır. Əgər Ə.Kərimli Tofiq Yaqublunun, Qubad İbadoğlunun, Nazim Baydəmirlinin siyasi məhbus olduqlarını düşünürsə, burada da yanlışlığa yol verir. Çünki o şəxslərin kifayət qədər yaşları və başları var. Onlar istintaqın gedişində cinayətlərini açıq şəkildə etiraf ediblər. Söz yox ki, cinayətin səmimi şəkildə etirafı müsbət cəhətdir. Yəqin ki, məhkəmə sonda qərar qəbul edərkən bunu nəzərə alacaq.

***İLHAM ƏLİYEV***

ANALİZ

***ABŞ prezidenti Co Bayden öz sələfi Donald Trampa qarşı ən sərt tənqidini, hətta ittihamlarını noyabrda keçiriləcək prezident seçkilərinə yaxınlaşdıqca daha da artırır. Bu barədə dünya mətbuatında kifayət qədər informasiyalar yer alır və bu, o deməkdir ki, Baydenin öz rəqibinə təzyiqlərinin artıq kifayət qədər artdığı müşahidə edilməkdədir. Dünyaca məşhur olan CNN nəşrinin özü də bu barədə sərt və açıq şəkildə qeyd edirsə, deməli, ABŞ daxilində seçkiöncəsi proseslərlə bağlı, daha dəqiq desək, özünü demokratiyanın beşiyi kimi qələmə verən ölkədə qeydə alınan təzyiqlər fonunda tamamilə fərqli bir mənzərə müşahidə edilir, hansı ki, bu mənzərə demokratiyadan danışmağa rəsmi Vaşinqtona qətiyyən haqq vermir.***

# ABŞ-da təzyiqlər fonunda QONDARMA DEMOKRATİYA

Co Bayden ABŞ-ın mərhum prezidenti Corc Vaşinqtonun təxminən 250 il əvvəl Britaniya müstəmləkəçilərinə qarşı döyüşmək üçün öz qüvvələrini topladığı Pensilvaniya ştatının Valley Forge tarixi ərazisi yaxınlığında kampaniya aparıb. ABŞ-ın hazırkı prezidenti Bayden Trampı nasist ideologiyasına sadiq qalmaqda və demokratiya üçün təhlükə yaratmaqda ittiham edib. "O, demokratiyamızı qurban verməyə və hakimiyyəti özü ələ keçirməyə hazırdır", deyən cənab Bayden bildirib ki, iki dəfə impiçment elan edilmiş keçmiş prezident və onun sadiq tərəfdarları ikinci seçki öncəsi hələ də "siyasi zorakılıq" ideologiyasını qoruyub saxlayırlar. Bir sözlə, o, keçmiş ABŞ prezidentini istədiyi şəkildə hədəfə alıb və bu məqsədlə də öz nitqində öz sələfini ittiham edib. Nəzərə belə almayıb ki, söhbət ölkəsinin keçmiş prezidentindən gedir və onun barəsində dedikləri də ABŞ üçün heç də "üz ağlığı" demək deyil. İstənilən halda, Donald Trampın hansısa bir ölkənin deyil, məhz ABŞ-ın prezidenti olduğunu Bayden nəzərə almalı idi və bunu nəzərə almayıbsa, deməli, "mübarizə" çox ciddi bir şəkil almaqdadır. Hətta əminliklə deyə bilərik ki, ölkəsini belə düşünmədən, nəzərə almadan rəqibi barəsində kəskin ifadə səsləndirən ABŞ prezidentindən demokratik tələbləri nəzərə alacağını gözləmək də istənilən halda sadəlövhlük olar.

Prezident Bayden Trampı "nasist kimi" danışdığına və demokratiyanı təhdid etdiyinə görə qınamaqdan qətiyyən çəkinmir. ABŞ-ın hazırki prezidentinin sözlərinə görə, onun sələfi əsasən qisas almaq niyyətindədir. "O, ona qarşı çıxanları həşərat adlandırır. O, nasistlərin işlətdiyi eyni sözləri təkrarlayaraq amerikalıların qanını zəhərləməkdən danışır", deyən Co Bayden iddia edir ki, Donald Tramp siyasi rəqiblərini cəzalandırmaq üçün Ağ Evə qayıtmaq istəyir. Aydın şəkildə görünür ki, Bayden rəqibinə qarşı fikirlər səsləndirəndə öz fantaziyalarını da işə salır və düşündüklərini belə, fakt, yaxud arqument kimi təqdim etməkdən çəkinmir. Hər halda demokratik dəyərlərdən dəm vuran bir ölkənin prezidenti üçün belə bir yanaşmanın nə dərəcədə utancverici olması hər kəsə bəllidir. Amma söhbət təkcə ABŞ prezidentinin tərzindən, danışığından, qüsurlu nitqindən getmir, demokratik bir dövlət kimi bütün dünyaya sırınan ölkənin prezidentinin özünə nəyi rəva bilməsindən gedir. ABŞ adminstrasiyasının demokratiya sözünü bayraq etməsi və bütün dünya ölkələrinə bu mövzuda "dərs keçmək" niyyəti fonunda prezidentinin belə bir şəkildə öz rəqibinə qarşı uydurmalarla ittiham irəli sürməsinə görə bu ölkə hakimiyyəti heçmi xəcalət çəkmir?




Amerikanın hazırkı prezidenti öz rəqibinə qarşı ittihamlar irəli sürəndə qeyri-etik davranış da sərgiləyir. Özü də bunu çəkinmədən və xüsusi canfəşanlıqla edir. ABŞ Nümayəndələr Palatasının keçmiş spikeri Nensi Pelosinin ərinə çəkiclə hücum edilməsi hadisəsini xatırlayaraq Donald Trampı ələ salan Bayden təkcə demokratiyanı deyil, etik normaları da hesaba almır. Həmin hadisəni xatırlayaraq, Trampı "xəstə adam" adlandırmaqla onu təhqir də edir. Bəlkə ABŞ adminstasiyası belə faktları görmür? Yaxud Ağ Ev tənqidlə qəhqir arasında heçmi fərq bilmir? Məgər təhqir faktına, özü də sabiq prezidentin təhqir olunmasına yol verilə bilərmi? Vaşinqton bu dəyərləri dünyaya nümunə göstərmək fikrindədir, yoxsa, oradakılar elə hesab edirlər ki, dünyanın demokratiyadan da, insan haqlarından da, etik normalardan da xəbəri yoxdur və bütün bu sadalananlar barədə ancaq ABŞ-ın danışmağa haqqı çatır?

Trampı hədəfə alan Co Bayden onu istədiyi şəkildə, istədiyi mövzuda tənqid etməkdən çəkinmir. O öz sələfinin Şimali Koreya lideri Kim Çen Ina yazdıqlarını "sevgi məktubları" kimi qələmə verir və bununla bağlı onu nəinki qınayır, hətta ələ salır. Bir ölkənin başçısına yaraşmayacaq şəkildə öz rəqibini gözdən salmaq üçün istənilən addımı atmağı ABŞ lideri özünə rəva bilir. Ona isə, dünyaya demokratiya dərsi keçmək iddiasında olan ölkədə qətiyyən bunun qəbuledilməz olduğu heç bildirilmir də. Sözsüz ki, belə bir şəraitdə onun üçün münbit şəraitin yaranması qənaəti ortaya çıxır və özünü tamamilə sərhədsiz şəkildə aparır, öz rəqibinə qarşı da ağlına gələn şəkildə fikirlər səsləndirir. Donald Trampın Şimali Koreya lideri ilə yanaşı, Rusiya prezidenti Vladimir Putinə də "heyranlığına" diqqəti çəlb etməyə çalışan ABŞ prezidenti heç bir sərhəd tanımadan rəqibinə qarşı istədiyi kimi davranmaqdan az da olsa çəkinmir. Bu, artıq demokratiya deyil. Belə bir tərz nəinki ABŞ, ümumiyyətlə, heç Afrika ölkələri üçün də qəbuledilməz sayıla bilməz. Rəqibi təhqir etmək, ələ salmaq, ona təzyiqlər etmək demokratiya demək deyil, xaos və anarxiya deməkdir. Belə bir şəraiti ABŞ demokratiya hesab edirsə, onu özü üçün rəva bilsin və dünyanın heç bir ölkəsinə belə demokratiya lazım deyil.

Sözsüz ki, ABŞ-ın hazırkı prezidentinin öz rəqibinə qarşı təzyiqləri, qeyri-etik davranışları, keçirdiyi kampaniyalar cavabsız qala da bilməzdi və onun rəqibi də haqlı olaraq, öz iradını bildirməkdədir. Hətta Baydenin özünə həqiqətən də güclü rəqib bildiyi Donald Trampın dedikləri daha məntiqli səslənir. Bizim hansısa bir namizədi dəstəkləmək, onun tərəfində olduğumuzu bildirmək kimi bir niyyətimiz yoxdur, amma reallığı ifadə etmək ənənəsinə sadiq qalaraq bildirməliyik ki, Tramp haqlı olaraq, Baydenin onun özünə olan təzyiqlərini nəzərə alaraq rəqibini "Qorxu aşılamaq" və ya "qorxu yaymaqda" ittiham edir. Sabiq prezident bu ittihamlarını açıq-aşkar şəkildə Ayova ştatında seçki kampaniyası zamanı çıxış edərkən bildirib. "Cənab Baydenin rekordu qırılmayan zəiflikləri, səriştəsizlikləri, korrupsiya və uğursuzluqlar silsiləsidir... Buna görə də o, bu gün Pensilvaniyada qorxu səpərək fəlakətli kampaniya apardı", deyə cənab Tramp öz tərəfdarlarına bildiribsə, deməli, vəziyyət düşündüyümüzdən də daha gərgindir. Ələlxüsus da Trampın sözçüsü Stephenin Bayden haqqında dedikləri daha çox diqqəti cəlb edir və qeyd etdiyimiz qənaətə gəlməkdə haqlı olduğumuzu sübut edir. "Siyasi rəqiblərini ovlamaq və 2024-cü il seçkilərinə müdaxilə etmək üçün hökumət silahlarından istifadə etməklə demokratiya üçün ekzistensial təhlükə yaradır", deyə Baydeni ittiham edən Trampın sözçüsü öz ölkəsinə çox ciddi mesaj verir. Daha dəqiq desək, demokratiya üçün ekzistensial təhlükə yarandığını bəyan edən Trampın hemin şəxs hələlik xəbərdarlıq etməklə kifayətlənib. Amma bu o demək deyil ki, bundan sonra da kifayətlənəcək və öz cəmiyyətində, öz ölkəsində demokratik dəyərlərin hansı şəkildə pozulduğunu elan da etməyəcək, əksinə, pozuntuları açıq-aşkar şəkildə bildirəcək. Ola bilsin ki, onun özü də münasib zamanı gözləyir.

Daha bir fakt da diqqətimizi cəlb etməyə bilməzdi. Belə ki, ABŞ Ali Məhkəməsi Kolorado məhkəməsinin cənab Trampın bu ştatda seçki bülletenindən çıxarılmasına dair qərarını nəzərdən keçirəcəyini bəyan edib. Hətta Məhkəmənin fevral ayında arqumentləri ortaya qoyacağı da gözlənilir. Cənab Trump üçün hazırlanan xoşagəlməz hallar bununla da bitmir. Nyu-York əyalətinin baş prokuroru Letitia James Nyu Yorkda daşınmaz əmlak sektorunda onun fəaliyyət göstərməsini qadağan edərək, 370 milyon ABŞ dolları həddində cərimələnməsini yanvar ayında məhkəmədən xahiş edib. Manhetten Ali Məhkəməsində cənab Trampın, onun iki oğlunun və təşkilatının borc götürmək və alış-veriş etməkdən faydalanmaq üçün aktivlərin dəyərini şişirdərək biznes fırıldaqlarında ittiham olunduğu mülki işin yekunlaşmasından həftələr sonra bir-birinin ardınca ittihamlar səslənir. Tramp ittihamları rədd edir və bunun siyasi motivli olduğunu bildirir. Yəni, açıq-aşkar şəkildə bildirir ki, ona qarşı ittihamlar, iddialar hamısı siyasi məqsədlə irəli sürülüb. Bu isə o deməkdir ki, ittihamların da, iddiaların da reallıqla heç bir əlaqəsi yoxdur və bunlar təzyiq variantıdır. Budurmu Amerika Birləşmiş Ştatlarının böyük pafosla bəyan etdiyi demokratiya? ABŞ-da olan demokratiya belə bir şəkildədirmi? Bayden adminstrasiyası demokratiya dedikdə, təzyiqlər edilməsini başa düşürmü? Yaxud, prezidentliyə namizəd olan birinə qarşı təzyiq demokratiya nümunəsi hesab olunurmu?

Görürük ki, ABŞ kimi özünü qondarma da olsa, demokratiyanın beşiyi adlandıran bir ölkədə təzyiqlər var. Həmin ölkədə siyasi motivli olduğu bildirilən çoxsaylı cinayət işləri, həbslər belə gözlənilir. Co Bayden və onun administrasiyası indi məhz Trampın hakimiyyətə gəlişinin yolunu kəsmək üçün bütün mümkün vasitələrdən, özü də qəbul olunmamış vasitələrdən istifadə edir. Seçki saxtakarlığının olacağı indidən özünü göstərir. Həqiqətə uyğun olmayan, yalan, feyk məlumatların sosial mediaya qədər daşınması göstərir ki, saxtakarlığa artıq indidən başlanılıb. Görünür, bundan əvvəlki seçkidə, yəni Co Baydenin prezident seçildiyi bəyan edilən seçkidə saxtakarlıqların olması barədə qeyd olunanlar də təsadüfi deyildi. Qarşıdan gələn seçkilərə dırnaqarası "hazırlıq" özü də təsdiq edir ki, ABŞ demokratiya deyilən dəyərləri ancaq başqa ölkələr üçün nəzərdə tutur. Həmin ölkədə müşahidə edilən təzyiqlər fonunda görünən, yaxud, göstərmək istədikləri ancaq və ancaq qondarma demokratiyadır.

***İnam Hacıyev***

ANALİZ

# Qadın kimdir?



**_Bir vaxtlar mətbuatın sevimli mövzusu idi gender bərabərliyi mövzusu. Əzilən, xor görülən, incidilən qadınların haqqında səhifələrlə məqalələr hazırlanırdı, verilişlər, sujetlər çəkilirdi. Bütün cəhdlər, qadınların ikinci sinif kimi əziyyət görmələrini dünyaya car çəkmək, bu əziyyətə qarşı üsyanlarını mediaya çıxarmaq, baxış sayı toplamaq, müəyyən ölkələrdən alınan qrantların haqqını ödəmək uğrunda idi. Bu torpaqlar var olduğu gündən etibarən qadın hökmdar da olub, qadın diplomat da, qadın sərkərdə də, qadın cəngavər də. Qadın əzilməyib tarixən Azərbaycanda, ta ki yad mədəniyyətlər, yad əllər torpaqlarımıza pərçimlənməyincə..._**



### Qadın sevgidir.

Kimsə deyib, müəllifi unutmuşam: "Əgər bir qadın sevdiyini, sevdiyi qədər möhkəm qucaqlaya bilsə, bütün sümükləri sınar". Zərif dediyimiz qadından dünya boyda sevgi çıxarmı? Çıxar. Bəşəriyyət onun bətnindən törəyib, sevgi onun içindən daşıb cahana. Qadın təmənnasız sevir, qarşılıqsız sevir. Qadının sevgisi dibsiz quyudur, bitməyəndir, tükənməzdir. Bir qadından təmənnasız sevgi görürsünüzsə, bunun dəyərini bilin.

### Qadın sirdaşdır.

Ən yaxşı dinləyici və ən yaxşı sirdaşdır qadın. Ailə o zaman bütöv olur ki, bütün sirlər açıqda olur, kişi qadını sirdaş görür özünə. O dinləməyi də bacarır, sakitləşdirməyi də. Dünyanın ən təhlükəsiz yeridir onun yanı, hələ sevirsinizsə, aşiqsinizsə onun yanı müqəddəsdir sizə. Ondan gizlətməyin, açıq sözlü kişiləri sevir qadınlar. Enerjini başqalarına xərcləyib yorğun, bitkin getmə yanına, ona da enerji sərf et, onunla danış, onu da dinlə. Məsləhət al, məsləhət ver. Qadınlar 24 saat çəkdikləri yükü unudurlar həyat yoldaşı ilə 24 saniyə də olsa dərdləşəndə. Dinlənmək, anlaşılmaq, ciddiyə alınmaq qanad verir onlara.

### Qadın məsuliyyətdir.

Evdə də, işdə də dəyişməyən bir şey var – harada qadın varsa, məsuliyyət onun üzərindədir. Ən böyük tədqiqatlar, araşdırmalar da nəticələrini elan edəndə bunu aydın görürük. Məişətdə ən böyük yük qadının çiyinlərindədir. Evdə işləyir, həyətyanı təsərrüfatda işləyir, uşaqlarla məşğul olur, məktəbə aparıb-gətirir, dərslərini etməyə nəzarət edir, dükan-bazar işlərinə qaçır, ümumiyyətlə, qadınlar nəfəs dərmir. İşləyən qadınlar iş mühitində məsuliyyəti daim çiyininə götürür, daha çox işlə yüklənir, tapşırığı daha tez yerinə yetirir, qarşı cinsə nisbətən daha çox məhsuldar olur.

### Qadın bumeranqdır.

Bir qadına nə verirsənsə, sənə ikiqat geri qayıdır. Sevgi, hörmət, fədakarlıq və bunun kimi bir çox münasibət formaları bir qadın üçün əvəzsiz sərvətdir. Bütün qadınlar diqqəti sevir, özünə qarşı diqqət görən qadın bunun qarşılığını artıqlaması ilə qaytarır. Çünki fədakarlıq, münasibətdə qarşı tərəfə özündən nələrisə qurban vermək onun təbiətindədir. Qadının qəlbini sevgi ilə doldurduqda o nə maddi şeyləri görür, nə də çiyinində olan yükləri. Onun tək istəyi qarşı tərəfdən gördüyü dəyər, qayğı və diqqətdir. Əslində, sizin ona ev işlərində kömək etməyiniz işini artırmaqdan başqa bir şey deyil. Çünki qadınlar yalnız öz gördükləri işi bəyənirlər, sizin təmizlədiyiniz döşəməni o yenidən təmizləyəcək, amma sizin ona kömək təklif etməyiniz böyük dəyərdir. Onun sizin köməyinizə ehtiyacı olmasa belə, bu köməyi əsirgəməyin. Əmin olun, ona etdiyiniz ən kiçik köməyi gecikmədən artıqlaması ilə özünüzə qaytaracaq.

### Qadınlar sülhdür.

Dünyanın heç bir yerində, heç bir qadın müharibə arzulamır. Müharibə qandır, ölümdür, bala, ər, ata, qardaş itkisidir və qadın öz ölümünə razı olar, amma onlardan birini itirməyə yox. Qadınlar sülh istəyir, həm dünyada, həm ölkəsində. Qadınlar barışmağın, sülh içində qardaşcasına yaşamağın tərəfdarıdır. Qadınlar sülh üçün övladının qatilini belə əhv edə biləcək qədər böyük ürəyə sahibdir. Qadınlar övladı müharibə görməsin deyə dünyanın yükünü çiynində gəzdirməyə razıdır. Qadın mərhəməti bu dünyanın ehtiyacı olan ən böyük duyğudur.

### Qadın inqilabdır.

"Bir qadın gücdür, çox qadın isə inqilabdır" deyiblər. Bunu onlar tarixin bir çox dövrlərində sübut ediblər. Əməyini, gücünü, sağlamlığını istismar edənlərə qarşı etiraz səslərini yüksəltmələri ilə inqilab etdilər. 8 Martın qəbul edilməsi sosialist qadınların dirənişinin, etirazının, qərarlılığının nəticəsində olmadımı? Qadın istəyərsə böyük gücə malikdir, bu tarix bəşəriyyətə bunu sübut etdi.

### Qadın gözəllikdir.

Qadınlarsız bir dünya təsəvvür edin. Elə ilk saniyədə insanın ruhu sıxılır, nəinki cismi. Qadınlar dünyanın bəzəyidir, estetikasıdır. Estetika demişkən, estetik gözəllikdən danışmıram. Təbiətin yaratdığı, bədənini sevən, özünü yaradanın gördüyü kimi görən qadınları nəzərdə tuturam. Gözəl bir qadın lütfdür, şansdır, bəxşişdir. Əgər bir gün dünya pislikdən, zülmdən xilas olacaqsa onu qadın gözəlliyi, estetikası və zərafəti xilas edəcək.

### Qadın qüdrətdir.

Yaradan qadına elə bir qüdrət verib ki, bu qüdrətin eynisi yalnız özünə məxsusdur – yaratmaq qabiliyyəti. Bütün bəşəriyyət qadının bətnindən yaranıb. Tarixin bəzi dövrlərində qadınlar bu üstün xüsusiyyətinə baxmayaraq xor görülüb, əzilib və istismar edilib. Qadınlar daşlanıb, asılıb, kəsilib, yandırılıb. Yaradanın ən qüdrətli varlıq kimi xəlq etdiyi bu yaradılış möcüzəsinə qarşı olan qeyri-insani münasibət onlara bu dünyada cəhənnəmi yaşadıb.

### Qadın cənnətdir.

Olduğu yeri cənnətə çevirən, xarabalığı yurd edən, yuvaya çevirəndir qadın. Ayağının dəydiyi yer gözəlləşir, əlini vurduğu hər şey yenilənir. İnsan övladının bu dünyada cənnətidir qadın. Qoxusu, nəfəsi, addımı, toxunuşu – hər şeyi cənnəti xatırladır. Cənnət onları ayağının altı, müqəddəs yer əllərinin toxunduğu yerdir. Qadını incidən özünü cənnətindən məhrum edir demək...

### Qadın vətəndir.

Yaşadığımız coğrafiyanı bizə vətən edən, yurd edən qadındır, anadır. Onu qorumaq üçün qoruyuruq əslində vətəni. Vətən bizim üçün ana deməkdir, necə ki, Ana Vətən, Ana Torpaq deyirik. Qadın yurddur, evdir, eşikdir, torpaqdır. Necə ki, torpağa atdığın dən cücərir, boy atır, məhsul verir, eləcə də ananın bətnində böyütdüyü, dünyaya gətirdiyi fidanlar böyüyür yurda oğul, qız olur. Qadınsız insan yurdsuz insandır, qadınsız kişi vətənsiz kişidir. Qadın vətəndir, vətən isə müqəddəs.

### Qadınlar insandır.

Qadın insandır, kişilər isə insan övladı. Belə deyib böyük ozan Neşet Ertaş. Siz heç bu günə qədər kişilərin haqlarının pozulması, öldürülmələri, zorakılığa məruz qalmaları səbəbindən aksiya keçirdiklərini gördünüzmü? Mən görmədim. Çünki bütün bunlara qadınlar məruz qalır, döyülür, söyülür, qətl edilir. Haqlarını tələb edirlər, ala bilsələr... İnsanlıq qaça-qaça, var gücü ilə sıldırım qayalığa doğru gedir. İnsanlığı qətl etməyin ey kişilər! Oturduğunuz budağı kəsməyin. Qadının həyatda ən böyük qorxusu qarşı tərəfin sevgisini və hörmətini itirməkdir, çünki qadınlar bitkilər kimidir, sevgi göstərməsən, suvarmasan, gübrələməsən tez solarlar. Çox qadın öz gücünün fərqində deyil, nəinki özünə, bütün dünyaya su, gübrə ola biləcəyini bilmir. Əgər bilsə...

***Lalə Mehralı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb.*



SON SƏHİFƏ

SƏS

2 fevral
2024-cü il

# Böyük çillə gecəsində nə baş verir?



AYDINLIQ GƏTİRİLDİ

***"İlin 365 gününün ən uzun gecələri el arasında Çillə gecələridir. Bunlar həm də əslində Novruza qədərki üç ayı əhatə edir. Bir növ Novruza hazırlıqdır. Artıq yanvar ayının 31-dən fevralın 1-nə keçən gecə kiçik çillə daxil olur. Bu isə o deməkdir ki, 20 gün qış gecəsi daxil olur". Bu sözləri SİA-ya açıqlamasında Filologiya üzrə fəlsəfə doktoru, dosent İlhamə Qəsəbova deyib.***

Onun sözlərinə görə, xalqımızın adət-ənənələrinə və inancına görə kiçik çillənin cəmi 20 gün ömrü var: "Çillələr adından da bəlli olduğu kimi, çilə çəkmək, sıxıntı içində yaşamaq, çətinliklərlə üzləşmək deməkdir. Təsadüfi deyil ki, elə qışın bu çətinliklərini, əzab-əziyyətlərini dəf etmək üçün əcdadlarımız müəyyən ayinləri, mərasimləri yaratmışlar və onlar inanmışlar ki, bu ayin və mərasimləri icra etməklə hər əziyyətə, çiləyə sinə gərmək olar.

Qədimdən insanlar çillələri üç yerə qruplaşdırıblar. Böyük çillə, kiçik çillə, boz ay. Kiçik çillə böyük çillədən çox fərqlidir. Məsələn böyük çillə sakit, mülayim, insanlara ziyan vurmayandırsa kiçik çillə sərtdir, bəzən isə el arasında kiçik çillə daha amansızdır deyirlər. Yəni hava şəraiti müəyyən qədər tez-tez dəyişir. İnsanlar çıxılmaz vəziyyətdə qalırlar. Kiçik çillə həm də özü ilə müşküllük gətirir. Buna baxmayaraq kiçik çillənin gəlişində insanlar "qışı yarı etdik" deyə sevinirlər. Kiçik çillə el arasında "qışın oğlan çağı" adlanır. Kiçik çillə cəmi 20 gün - fevral ayının 1-dən başlayır. Kiçik çillə gecələrində qışın ilk ongünlüyündə türk xalqlarının folklorunda bolluq, firavanlıq etiqadları ilə bağlı yaranmış "Xıdır Nəbi" mərasiminin xüsusi yeri var. "Xıdır Nəbi" mərasiminin təqribən fevralın birinci on günlərində keçirilir. Təəssüf olsun ki, son dövürlərdə bu bayramı elə də önəmli keçirmirlər.

Xıdır xalqın şifahi yaddaşında müsbət, xeyirxah, insana uğur gətirən bir obraz kimi əks olunmuşdur. İnanca görə, "Xıdır Nəbi" mərasimi hər evdə, hər ailədə qeyd olunmalı, Xıdırın şərəfinə məclis qurulmalıdır. Evlərdə süfrələr açılmalıdır ki, Xıdır Nəbi o evə bolluq-bərəkət, sağlıq və hüzur gətirsin, İnanca görə hər hansı bir evdə həmin gün süfrə açılmazsa, Xıdır küsüb gedəcək, baharın gəlişini belə gecikdirəcək. İnanca görə üç il o evə ruzi gəlməz. Mərasimin əsas atributlarından biri qovutdur. Buğda qovrulub qovut çəkilir və süfrəyə qoyulur. Hətta Gürcüstanda yaşayan soydaşlarımız pambıqdan niyyət şamı düzəldirlər. Evdə neçə nəfər varsa hərənin adına uyğun, hətta mal-qaranın da adına şam düzəldib bayramın 3 cü günü yandırırlar. Süfrələr açırlar, hər kəs bu bayramı evində qarşılayır ki, o gün Xıdır onların evinə gələndə evi kimsəsiz görməsin.

Erkən etiqadlara görə, Xıdır əlini torpaga, buğdaya, qovuta çəkir, bununla da, özü ilə bolluq, bərəkət, xoşbəxtlik gətirir. Naxçıvan və Gürcüstanda yaşayan soydaşlarımız bu gün bunu qismən də olsa icra edirlər. "Xıdır Nəbi" mərasiminin digər atributları Su və Torpaqdır. Erkən etiqadlara görə Boz atlı Xıdır Nəbi torpağı, təbiəti ağ örpəyə bürüyür, onun atının dırnağı torpağa dəyəndə il boyu insanlar quraqlıqdan əziyyət çəkmir. İnanca görə, torpaq ölməsə, yenidən dirilməz. Qarlı, şaxtalı qış fəsli torpağı təmizləyir, bolluq, bərəkət, firavanlıq gətirir. "Xıdır Nəbi" mərasimi üç gün davam edir. Bu mərasim Novruzqabağı mərasimlərə daxildir.

Göründüyü kimi, qış fəslinin ayrı-ayrı mərhələlərini təşkil edən Böyük çillə, Kiçik çillə və Boz ay, Xıdır Əlləz bayramı təbiət hadisələrinə olan münasib, təbiət qüvvələrinə olan inamını əks etdirən amillərdəndir. Qış fəslinin son ayı isə Boz aydır".

***Səbinə Hüseynli***

# Tanınmış baş məşqçi və 3 idmançı həbs olunub

Azərbaycan MMA və Qrapplinq Federasiyasının baş məşqçisi Ruslan Əfəndiyev və tələbələri Tofiq Musayev, Xəzər Rüstəmov, Vüqar Kərəmov, Mehman Məmmədov və Rüfət Əsədov münaqişə vəziyyəti yaratmaqla ictimai yerdə bir vətəndaşa zor tətbiq edərək xuliqanlıq hərəkətləri törətmələrinin təfərrüatları məlum olub. SİA-nın əldə etdiyi məlumata görə, Xətai Rayon Məhkəməsində həmin şəxslərlə bağlı qərar qəbul edilib.



Qərara əsasən, Ruslan Əfəndiyev, Xəzər Rüstəmov, Vüqar Kərəmov və Rüfət Əsədov barəsində 1 ay 26 gün müddətinə həbs qətimkan tədbiri seçilib. Onlar Cinayət Məcəlləsinin 221.2.1-ci (bir qrup şəxs tərəfindən və ya təkrarən xuliqanlıq törədildikdə) maddəsi ilə ittiham ediliblər. Tofiq Musayev və Mehman Məmmədov barələrində isə digər qətimkan tədbiri seçilib.


# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!




*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN

6 aylıq 79.20 AZN

1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Tez arıqlamağa kömək edən mikroelementlər BƏLLİ OLDU

***"Arıqlama prosesində orqanizmin ehtiyac duyduğu bir sıra mikroelementlər və vitaminlər var, birinci yerdə dəmir dayanır. Dəmir çatışmazlığı insanda enerji çatışmazlığı, yorğunluq kimi problemlərə yol açır". Bu sözləri SİA-ya açıqlamasında dietoloq Ceyhunə Yusifova deyib.***

Dietoloqun sözlərinə görə, biz rasionumuza dəmirlə zəngin qidalar qəbul etməliyik. Məsələn qırmızı ət, ispanaq, toyuq, mərcimək, qaraciyər və s. daxil edə bilərik. Daha sonra kalsium maddələr mübadiləsini sürətləndirməyə kömək edir və arıqlama prosesində yağ yandırmağa dəstək olur. Buna görə də biz rasionumuza süd, qatıq, pendir, badam, yaşıl yarpmaqlı tərəvəzləri rasionumuza daxil edə bilərik. Daha sonra vitamin B6-ı qeyd edə bilərəm, B6 maddələr mübadiləsini tənzimləyir və bu da bizim arıqlamağımıza kömək edir. Toyuq, balıq, kartof, banan, qoz, fındıq və s. bunlarda B6 vitamini ilə zəngindir. Vitamin B12 bizim enerji istehsalımıza kömək edir, B12 ilə zəngin somon balığı, skumbriya, mal əti, yumurtadır.

Vitamin C immunitet sistemini gücləndirir və eyni zamanda antioksidant xüsusiyyətlərinə malikdir. Ona görə də rasionumuza portağal, limon, bibər, brokoli, çilək kimi qidaları qəbul edə bilərik. Bura vitamin D əlavə edə bilərik, çünki vitamin D kalsium udulmasını dəstəkləyir, sümük sağlamlığını qoruyur, eyni zamanda metobalizmanı da sürətləndirir. Biz D vitaminini artırmaq üçün günəş işığından faydalana və süd, yumurta kimi qidaları rasionumuza daxil edə bilərik. Sink immunitet sistemini möhkəmləndirir, həmçinin metabolik funksiyaları tənzimləyir. Buna görə biz rasionumuza qırmızı ət, yer fıstığı, taxıl kimi qidaları rasionumuza daxil edə bilərik. Fol turşusu arıqlamada məsləhət bildiyim mikroelementdir. Fol turşusu hüceyrələrin yenilənməsinə, qan dövranının yaxşılaşdırılmasına yardım edir. Biz fol turşusu ilə rasionumuza qidalar qəbul edə bilərik bura tünd yaşıl tərəvəzlər, yaşıl yarpaqlı tərəvəzlər, qaraciyər, sitrus meyvələri aiddir. Bu mikro elementlər, vitaminlər sağlam qidalanmanın ən vacib hissələridir və bunlar vasitəsilə daha tez arıqlaya bilərik".

***Sevilin Abbasova***




*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 2700